11 yanvar 2023 №2 (1971)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Bu dəhliz ya açılacaq, ya açılacaq...

### Zəngəzur dəhlizi layihəsinin reallaşması bizim təbii hüququmuzdur

Zəngəzur dəhlizi layihəsi bizim üçün təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, strateji bir layihədir. Tam əminik ki, bu layihənin reallaşması bizim təbii hüququmuzdur.

Prezident İlham Əliyev bu sözləri yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində bildirib.

Bu layihənin 10 noyabr 2020-ci il tarixli üçtərəfli (Azərbaycan, Ermənistan, Rusiya) Bəyanatda da əksini tapdığını qeyd edən dövlət başçısı deyib: "Düzdür, orada "Zəngəzur dəhlizi" sözü yoxdur. Çünki "Zəngəzur dəhlizi" terminini mən ondan sonra, necə deyərlər, geosiyasi leksikona daxil etdim. Ancaq orada açıq-aydın göstərilir ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısı olmalıdır və Ermənistan bunu təmin etməlidir".

Prezident qeyd edib ki, indi Ermənistan bundan boyun qaçırmaq istəyir, faktiki olaraq, üzərinə götürdüyü öhdəlikləri iki ildən çoxdur ki, yerinə yetirmir. "Ancaq bu, bizi dayandırmayacaq. Yəni, bizim üçün bu, strateji layihədir və təkcə bizim üçün yox, bir neçə qonşu ölkə üçün və böyük coğrafiya üçün", – deyə İlham Əliyev vurğulayıb.

Dövlət başçısı bildirib ki, Zəngəzur dəhlizinin reallaşması tarixi zərurətdir: "Ona görə mən dedim ki, Ermənistan istəsə də, istəməsə də bu, reallaşacaq. Yəni, bunu Ermənistanda yenə növbəti təhdid kimi qəbul edirlər, halbuki belə fikrim yox idi. Sadəcə olaraq, bu, qaçılmazdır. Bu, gec-tez olacaq. Əlbəttə, biz istəyirik ki, tez olsun və daha tez olsun".

Dövlət başçısı əlavə edib ki, Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır: "Hazırda biz Bakı-Tbilisi-Qars dəmiryolu layihəsinin genişləndirilməsi ilə ciddi məşğuluq. Keçən il göstəriş verilib və büdcədən 100 milyon dollardan çox vəsait ayrılacaq, onun bir hissəsi artıq ayrılıb. Biz bu dəmiryolunun ötürmə qabiliyyətini indiki 1 milyon tondan 5 milyon tona qədər çatdıracağıq. Amma bu da kifayət etməyəcək. Orta Asiyadan gedən yüklər üçün də yeni yollar olmalıdır. Xəzər üzərindən keçən yol vaxt baxımından çox cəlbedicidir. Eyni zamanda, biz müştərək tarif siyasətini həyata keçirməklə bu yolu iqtisadi cəhətdən daha cəlbedici etməliyik. Hesab edirəm ki, burada da danışıqlar müsbət istiqamətdə gedir. Yəni, təkcə Orta Asiya ölkələrinin yükgöndərmə potensialını və oraya Avropa istiqamətindən gedən yükləri nəzərə alsaq görərik ki, hətta biz bütün bu layihələri icra etsək və genişləndirsək, yenə də çatmayacaq. Ona görə Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır".



Vətən müharibəsindən ötən iki ildə görülən işlərdən söz açan Azərbaycan Prezidenti diqqətə çatdırıb ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. "İkinci Qarabağ müharibəsindən sonra bizim əsas vəzifəmiz şanlı hərbi Qələbəmizi siyasi müstəvidə də təsdiqləmək idi. Biz dərhal işə başladıq. Çünki yaxşı başa düşürdük ki, əgər biz siyasi sahədə bu Qələbəni təsdiqləməsək, bu Qələbəni dünya ictimaiyyətinə qəbul etdirməsək, müəyyən problemlərlə üzləşə bilərik. Dərhal fəal işə başladıq və hesab edirəm ki, bu gün – artıq müharibədən iki il keçəndən sonra tam əminliklə demək olar ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. Azərbaycanın haqlı olması bir daha təsdiqlənib və müharibənin sonunda yaranmış vəziyyəti biz daha da möhkəmləndirməliyik, yəni, öz mövqelərimizi daha da gücləndirməliyik. Son iki il ərzində həm beynəlxalq əlaqələr müstəvisində, həm ölkə daxilində biz istədiyimizə nail ola bilmişik", – deyə İlham Əliyev əlavə edib.

Prezident qeyd edib ki, Azərbaycan müharibədən sonra bütün işləri öz hesabına edir: "Heç kimdən yardım almamışıq. Sadəcə olaraq, iki ölkənin – Özbəkistanın və Qazaxıstanın prezidentləri Füzulidə iki məktəbin tikintisinə özləri təşəbbüs göstərmişlər. Bundan başqa biz heç bir yerdən bir manat yardım almamışıq. Ona görə iqtisadi müstəqillik mütləq güclənməlidir və keçən il bizim ümumi daxili məhsulumuz rekord həddə çatıb. Son dəqiqləşdirilmiş məlumata görə 134 milyard manata çatıb. Bu da təxminən 80 milyard dollara bərabər olan rəqəmdir. Əlbəttə ki, həm də xarici ticarət artıb, 50 milyard dolları ötüb. Xarici ticarətin müsbət saldosu 25 milyard dollar təşkil edir. Yəni, iqtisadiyyatla məşğul olanlar bilirlər ki, bu, nə deməkdir və eyni zamanda, bizim xarici borcumuz azalıb".

davamı səh. 2-də

## Müqəddəs Zəfərə layiq olmalıyıq

Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik və elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında. İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi – bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi.

Dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev bu sözləri yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı deyib.

səh. 2

## "Heydər Əliyev ensiklopediyası" hazırlanacaq

Azərbaycan Milli Elmlər Akademiyasında "Heydər Əliyev ensiklopediyası" hazırlanacaq. Bununla bağlı işçi qrupu da yaradılıb.

Bu barədə yanvarın 10-da AMEA və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev: dövlətçilik idealları və müasir dövr" mövzusunda elmi konfransda akademiyanın prezidenti İsa Həbibbəyli məlumat verib.

səh. 3

## X Qlobal Bakı Forumu keçiriləcək

9-11 mart tarixlərində Azərbaycan paytaxtında növbəti beynəlxalq tədbir – X Qlobal Bakı Forumu keçiriləcək.

Forumun təşkilatçısı – Nizami Gəncəvi Beynəlxalq Mərkəzi özünün "Twitter" səhifəsində bu barədə məlumat yayıb. Forumun mövzusu "Dünya bu gün: çağırışlar və ümidlər" olacaq.

səh. 2

## Laçın-Xankəndi yolu üzərində dinc aksiya davam edir

Azərbaycanlı ekofəallar və könüllülərin Şuşa şəhəri yaxınlığında, Laçın-Xankəndi yolu üzərində dinc aksiyası havanın qarlı-şaxtalı olmasına baxmayaraq, yanvarın 10-da, otuzuncu günündə davam edib.




2022-ci il dekabrın 12-dən başlayan aksiyanın əsas tələbi Rusiya sülhməramlılarının müvəqqəti nəzarətindəki Azərbaycan ərazilərində ermənilər tərəfindən təbii sərvətlərin qanunsuz istismarına son qoyulması və Azərbaycanın aidiyyəti qurumlarının həmin ərazilərdə monitorinqinə imkan yaradılmasıdır. İştirakçılar bununla bağlı plakatlar qaldırır, şüarlar səsləndirirlər.

Aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Rusiya sülhməramlılarına məxsus təminat-təchizat avtomobilləri Laçın-Xankəndi yolu ilə maneəsiz hərəkət edirlər.

Aksiya yerində işğaldan azad olunmuş ərazilərimizdə ermənilərin törətdiyi vəhşilikləri əks etdirən fotolardan ibarət plakatlar da nümayiş olunur.

## Nizami Gəncəvinin əsərlərinə aid nadir əlyazmaların təqdimatı oldu

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin qəzəllərinin ilk əlyazması hesab edilən "Şeirlər məcmuəsi"nin (Tehran, 1295-ci il) elektron (digital) variantı Milli Kitabxana tərəfindən əldə olunub.



Yanvarın 10-da Milli Kitabxanada Mədəniyyət Nazirliyi ilə birgə həmin elektron variantın və əlyazmanın kitabxananın fondu üçün nəşr olunan nüsxəsinin, habelə tərtibat baxımından unikal hesab edilən Nizaminin "Xosrov və Şirin" poemasının və digər əsərlərinin əlyazmalarının (cəmi 156 əlyazma) təqdimatı keçirildi.

Milli Kitabxananın direktoru professor Kərim Tahirov giriş sözündə diqqətə çatdırdı ki, "Nizami Gəncəvi İli" (2021) münasibətilə Milli Kitabxananın Mədəniyyət Nazirliyi və Heydər Əliyev Fondu ilə birgə həyata keçirdiyi "Milli-mənəvi sərvətlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində bir sıra ölkələrin kitabxanalarında mühafizə olunan Nizami Gəncəvi əsərlərinin 156 nadir əlyazmasının elektron nüsxələrinin ölkəmizə gətirilməsi təmin olunub və bu iş gələcəkdə də davam etdiriləcək.

davamı səh. 2-də

## Türk dünyasının fikir tarixində silinməz iz qoymuş şəxsiyyət




Milli Azərbaycan Tarixi Muzeyi tərəfindən "Ömər Faiq Nemanzadə" adlı fotoalbom çap olunub. Nəşr görkəmli publisist, naşir, pedaqoq, ictimai-siyasi xadim Ömər Faiq Nemanzadənin (1872-1937) 150 illik yubileyinin keçirilməsi haqqında dövlət başçısının sərəncamına uyğun olaraq, muzeyin kolleksiyası əsasında hazırlanıb.

Yanvarın 10-da muzeydə nəşrin təqdimat mərasimi keçirildi.

Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru akademik Nailə Vəlixanlı tədbiri açaraq muzeyin fondlarının hər il tarix və mədəniyyətimizin müxtəlif səhifələrini əks etdirən yeni materiallarla zənginləşdiyini dedi. Yeni nəşr haqqında danışan direktor qeyd etdi ki, Ö.F.Nemanzadəyə aid fotoşəkillər dövrün tarixi-mədəni mənzərəsinin öyrənilməsi baxımından əhəmiyyətlidir. Bəzi şəkillərdə mühüm tarixi hadisələr əks olunub.

davamı səh. 2-də

## "Bu yaşda əsərlərimə qıraqdan baxmaq daha maraqlı gəlir..."



İçərişəhərdə yerləşən "Zaman Art" qalereyasında Əməkdar rəssam Eldar Qurbanovun 75 illik yubileyinə həsr olunmuş "Ömürdən səhifələr" adlı fərdi sərgisi keçirilir.

Yanvarın 6-da açılışı olan sərgi həm adı, həm də seçilmiş əsərlərlə maraq doğurur. Xüsusilə də rəssamın rəng seçiminin təzadları ziyarətçilərin diqqətini cəlb edir.

səh. 5

## "Sənətini göstərə bilənə diqqət etmək lazımdır"

Xalq artisti, Adana Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzov: "Paytaxtdan bölgəyə əksər teatrların işlərini izləmişəm, proseslə tanışam. Təzə binalar, texniki avadanlıqlar hamısı var. Amma əsas olan yaradıcı heyət qənaətbəxş deyil. Məhz teatrı sevən, ona lazım olan insanları saxlamaq və "işləməyən dişləməz" prinsipi ilə çalışdırmaq lazımdır. Sərf olunan əməyə, potensiala, yaradıcılığa, görülən işin nəticəsinə görə maddi təminat verilməlidir. Məhz sənətini göstərənə, peşəsindən qazanıb qazandırana diqqət etmək lazımdır...".



səh. 7

## Zərif duyğulu sənətkar

İlk milli peşəkar qadın teatr rejissoru kimi səhnə sənəti tariximizdə şöhrətlənən və layiqli yer tutan Ulduz xanımın qızlıq soyadı Rəfilidir. Bir sıra afişa və proqramlarda imzası belə yazılıb: Ulduz Rəfili-Əliyeva. Ata tərəfi Gəncə quberniyasının Borsunlu kəndindən Rəfililər, ana tərəfi isə həmin şəhərin şöhrətli Rəfibəylilər nəslindəndir. Atası Saleh bəy Oksford Universitetinin Hüquq fakültəsini bitirib. Anası Dilşad xanım isə Gəncə gimnaziyasında təhsil alıb. O gimnaziyada ki, onun yaradıcısı və direktoru Dilşad xanımın qardaşı Cavad bəy Rəfibəyli idi.

səh. 6

### Tanınmış animasiya rejissorunun yubileyi qeyd olundu




səh. 3

### Tolerantlığın Azərbaycan nümunəsi: kilsələrdə Milad bayramı qeyd edilib

səh. 4



### Natəvan haqqında daha bir ekran əsəri

səh. 5

# Müqəddəs Zəfərə layiq olmalıyıq

Azad edilmiş ərazilər indi canlanır, həyat qayıdır, insanlar qayıdır. Bildiyiniz kimi, tarixi Zəfərimizdən dərhal sonra azad edilmiş torpaqlarda genişmiqyaslı quruculuq-bərpa işlərinə başlamışıq və o bölgələrdə beynəlxalq idman yarışlarının keçirilməsinin çox böyük rəmzi mənası var. Şuşada beynəlxalq şahmat yarışı, Suqovuşanda, Suqovuşan gölündə beynəlxalq avarçəkmə yarışı keçirilmişdir. Zəngilanın Ağalı kəndinin ətrafında triatlon üzrə yarış keçirilmişdir. Mən bunu çox yüksək qiymətləndirirəm və bu il də bu işlər davam etdirilməlidir.



Dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev bu sözləri yanvarın 9-da 2022-ci ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı deyib.

Prezident qeyd edib ki, azad edilmiş şəhərlərin hər birində idman qurğularının yaradılması nəzərdə tutulur. Bütün şəhərlərin baş planları təsdiq edilib. Bütün bərpa-quruculuq işləri baş planlar əsasında aparılacaq və idman obyektlərinin yaradılması nəzərdə tutulur. Ağdamın məşhur "İmarət" stadionunun yeni layihəsi işlənilir. Stadion yenidən qurulacaq, eyni zamanda onun yanında böyük Olimpiya İdman Kompleksi yaradılacaq: "Bununla bərabər olaraq, keçən il Ağdamın Eyvazxanbəyli kəndində Qarabağ Atçılıq Kompleksinin təməli qoyuldu. Biz Qarabağ Atçılıq Kompleksini işğal dövründə Ağcabədi rayonunda yaratmışdıq, yenə də Qarabağ torpağında yaratmışdıq. Ancaq qərar qəbul olundu ki, bunun əzəli yerində – Eyvazxanbəyli kəndində çox gözəl, müasir atçılıq kompleksi yaradılsın. Artıq işlərə start verilmişdir".

Dövlət başçısı vurğulayıb ki, azad edilmiş bütün digər şəhərlərdə idman obyektlərinin yaradılması planımızda var: "Əlbəttə, biz, ilk növbədə, keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarmalıyıq və bu istiqamətdə işlər gedir. İlk növbədə, məktəblər, xəstəxanalar, infrastruktur yaradılmalıdır. Ancaq idman obyektləri də əlbəttə ki, yaddan çıxmır və çıxmayacaq".

Tarixi Zəfərimizin hər bir azərbaycanlı üçün, hər bir vətəndaş üçün, bütün dünya azərbaycanlıları üçün qürur mənbəyi olduğunu bildirən İlham Əliyev deyib: "Biz gələcək nəsli də vətənpərvərlik ruhunda tərbiyə edəcəyik, necə ki, bunu həmişə etmişik və elə gözəl gənc nəsil yetişdirmişik ki, həm idman arenalarında ölkəmizin bayrağını qaldırır, həm də döyüş meydanında. İkinci Qarabağ müharibəsində iştirak edənlərin mütləq əksəriyyəti gənclər idi – bizim siyasətimiz əsasında yetişən, həm cəmiyyətdə, həm də ailələrdə gözəl tərbiyə alan gənclər idi. Bu amil əlbəttə ki, bütün sahələrdə özünü göstərir. Yəni, artıq iki ildən çoxdur ki, xalqımız müzəffər xalq kimi yaşayır və bu qürurverici amil bizimlə bundan sonra əbədi olacaq. Sadəcə olaraq, bizim hər birimiz də öz sahəmizdə, öz fəaliyyətimizdə bu müqəddəs Zəfərə layiq olmalıyıq...".

# X Qlobal Bakı Forumu keçiriləcək




9-11 mart tarixlərində Azərbaycan paytaxtında növbəti beynəlxalq tədbir – X Qlobal Bakı Forumu keçiriləcək.

Bu barədə forumun təşkilatçısı – Nizami Gəncəvi Beynəlxalq Mərkəzi özünün "Twitter" səhifəsində məlumat yayıb. Forumun mövzusu "Dünya bu gün: çağırışlar və ümidlər" olacaq.

Qlobal Bakı Forumu Azərbaycan Respublikası Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2013-cü ildən keçirilir. Forumlarda dünya gündəminin aktual mövzuları, qlobal problemlər müzakirə olunur.

2022-ci il 16-18 iyun tarixlərində keçirilən IX Qlobal Bakı Forumu "Qlobal dünya nizamına təhdidlər" mövzusuna həsr olunmuşdu. Foruma 50-dək ölkədən nümayəndə heyətləri, o cümlədən dövlət başçıları, nazirlər, sabiq prezidentlər, eləcə də beynəlxalq təşkilatların rəhbər və yüksək vəzifəli şəxsləri qatılmışdı.

Dünyanın bir sıra sabiq dövlət və hökumət başçılarının təmsil olunduğu Nizami Gəncəvi Beynəlxalq Mərkəzi 2012-ci ildə Gəncədə, dahi şairin 870 illik yubiley tədbirləri çərçivəsində təsis edilib.

# Bu dəhliz ya açılacaq, ya açılacaq...

əvvəli səh. 1-də

Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığına dair sualı cavablandıran dövlət başçısı vurğulayıb ki, son illərdə enerji təhlükəsizliyi məsələləri dünya gündəliyində əsas yerlərdən birini tutub. Azərbaycanın neft-qaz sənayesi layihələrini necə reallaşdırması həmişə tərəfdaşlarımızın böyük hörmətini qazanıb. Rusiya-Ukrayna müharibəsi başlayandan sonra isə Azərbaycanın enerji resurslarına maraq əhəmiyyətli dərəcədə artıb: "Hərçənd bundan əvvəl də belə bir fikir bərqərar olmuşdu ki, Azərbaycan çox ölkələr, o cümlədən Avropa İttifaqının üzvü olan ölkələr üçün etibarlı tərəfdaşdır. Azərbaycanın imkanları artırdı və biz, necə deyərlər, evdə işlərimizi uğurla görür, daha sərfəli bazarlara istiqamətlənirdik. Təbii ki, Cənub Qaz Dəhlizi istifadəyə veriləndən sonra biz, o cümlədən Avropa İttifaqı ölkələrinə də qaz ixrac etməyə başladıq".

Prezident qeyd edib ki, ötən ilin sonlarında Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın imzaladığı sazişdə nəzərdə tutulan Avropaya elektrik enerjisi ixracı layihəsi də ölkəmizə olan investisiya marağından doğur. Hazırda Azərbaycanda reallaşan investisiya layihələri bizə əlavə 700 meqavatdan çox təmiz yaşıl enerji verəcək. Əsas məsələ bunun bundan sonrakı taleyidir – necə ötürüləcək? Çünki biz mövcud elektrik ötürücü xətlərimizi genişləndirməliyik: "Biz qayıdırıq yenə Zəngəzur dəhlizinə. Bizim fikrimizcə, o dəhlizdən, eyni zamanda, elektrik enerjisi ötürülməlidir. Məhz bu məqsədlə biz Cəbrayıl rayonunda böyük qəbuledici və çevirici stansiya tikirik. Əgər bu layihə reallaşarsa, onda Naxçıvanla Türkiyə arasındakı sərhəddə də bir stansiya tikilməlidir. Eyni zamanda, Türkiyə ərazisində ötürücülük imkanları genişləndirilməlidir. Çünki orada da bu qədər enerjini götürmək imkanı yoxdur. Yəni, bu, çox qlobal bir layihədir və tam reallaşa bilər...".



### Qərbi azərbaycanlılar mövzusunu haqlı olaraq beynəlxalq arenaya çıxarmışıq

Dövlət başçısı müsahibədə Ermənistandakı dədə-baba yurdlarından deportasiya olunmuş soydaşlarımızın – Qərbi azərbaycanlıların hüquqları mövzusunun beynəlxalq arenaya çıxarılmasından da danışıb: "Bu gün sirr deyil ki, Qərbi Azərbaycan İcması uzun illər deportasiyaya məruz qalmış icma kimi öz hüquqlarından məhrum idi. Əlbəttə ki, Qarabağ dərdi, problemi olan yerdə Qərbi azərbaycanlıların hüquqlarından danışmaq bəlkə də vaxtından əvvəl atılan bir atəşə bənzəyə bilərdi. Amma bu gün hesab edirəm ki, biz tam haqlı olaraq bu mövzunu artıq beynəlxalq arenaya çıxarmışıq".

Prezident deyib: "Mənim tövsiyələrim, yəni, dekabrın 24-də verdiyim tövsiyələr yerinə yetirilir. Xüsusi işçi qrupu yaradılıb, verdiyim bütün tapşırıqlar və eyni zamanda, yerlərdən gələn təkliflər əsasında biz vahid konsepsiya üzərində işə başlamışıq. Əlbəttə ki, Qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıtmalıdırlar, bu, onların hüququdur, bütün beynəlxalq konvensiyalar bu hüququ onlar üçün tanıyır. Biz də Azərbaycan dövləti olaraq əlimizdən gələni etməliyik ki, bu hüququ təmin edək. Yenə də mən orada da icmanın nümayəndələri ilə görüş zamanı demişdim ki, biz bunu sülh yolu ilə etmək istəyirik və əminəm ki, buna nail olacağıq".

İlham Əliyev qeyd edib ki, bu gün bizim məkanda, ümumiyyətlə, Avrasiya məkanında monodövlətlər yoxdur və Ermənistan üçün də yaxşı olar ki, bu monodövlət damğasını öz üzərindən götürsün. Bunun ən yaxşı və ən ədalətli yolu Qərbi azərbaycanlıların öz doğma torpaqlarına qayıtmalarıdır.

Prezident bildirib ki, deportasiya olunmuş azərbaycanlıların qayıtmaları ermənilərə problem yaratmayacaq. Çünki onların oraya qayıtmaları orada yaşayan ermənilərin oradan çıxarılması demək deyil. Çünki o kəndlər boşdur və biz, əlbəttə ki, əlimizdə olan bütün imkanlardan istifadə edəcəyik.

"Necə ki, vaxtilə Qarabağ mövzusu bütün Azərbaycan xalqını birləşdirdi və biz istəyimizə nail olduq, eyni yanaşmanı burada da görməliyik. Əlbəttə, burada media nümayəndələrinin fəaliyyətinə böyük ehtiyac var – həm ölkə daxilində, həm xaricdə. Mən bu barədə də fikirlərimi bildirmişəm. Yəni, çox geniş proqram hazırlanır", – deyə dövlətimizin başçısı bildirib.

Prezident deyib ki, bizim bütün proqramlarımız bir qayda olaraq icra edilir: "Biz heç vaxt reallaşması mümkün olmayan təşəbbüslərlə çıxış etmirik. Ona görə bu sahədə də artıq proqramın üzərində iş gedir. Əminəm ki, biz buna da nail olacağıq və tarixi ədaləti bərpa edəcəyik".

# Nizami Gəncəvinin əsərlərinə aid nadir əlyazmaların təqdimatı oldu

## Onların arasında şairin qəzəllərinin ən qədim əlyazması – yeddi əsrlik nümunə də var





əvvəli səh. 1-də

Kərim Tahirov bildirdi ki, bu əlyazmaların əldə edilməsində AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu ilə yaradılan birgə komissiya da mühüm rol oynayıb. Araşdırma zamanı dahi Nizaminin şeirlərinin də yer aldığı, 1295-ci ildə üzü köçürülən və böyük şairin əsərlərinin ən qədim əlyazması hesab edilən nüsxə və 1312-ci ildə köçürülmüş ən qədim "Xəmsə" əlyazması da aşkar edilib. Bu qiymətli əlyazmaların 30 nüsxəsi hər biri 1 nüsxə olmaqla nəfis şəkildə çap olunaraq kitabxananın "Nadir kitablar fondu"na daxil edilib.

Əlyazmalar İnstitutunun baş direktoru akademik Teymur Kərimli Nizami yaradıcılığından, onun Azərbaycan ədəbiyyatında tutduğu mövqedən, təqdim olunan əlyazmaların ədəbiyyatşünaslar üçün böyük əhəmiyyətindən, Milli Kitabxananın bu istiqamətdə həyata keçirdiyi işlərdən bəhs etdi.

Nəşrlərin əhəmiyyətini qeyd edən Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi Nizami yaradıcılığının daha geniş şəkildə təbliğinin vacibliyini vurğuladı.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli nazirlik tərəfindən Nizami Gəncəvi ilə bağlı həyata keçirilən layihələrdən danışdı: "Mədəniyyət Nazirliyi olaraq 2021-ci ildə Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı bir neçə layihə həyata keçirdik. Bu layihələrdən biri də Milli Kitabxana ilə birgə Nizami əsərlərinin əlyazma nüsxələrinin ölkəmizə gətirilməsi oldu. Nizami irsini araşdıraraq gələcək nəsillərə ötürmək bizim borcumuzdur".

Ötən ilin Mədəniyyət Nazirliyinin sifarişi əsasında Misirdə Nizami "Xəmsə"sinin orijinaldan ərəb dilinə tərcümə edildiyini söyləyən Akif Marifli bu il nəşr layihəsinin başa çatdırılacağını bildirdi.

AMEA Nizami adına Ədəbiyyat İnstitutu Qədim dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri filologiya üzrə elmlər doktoru, professor İmamverdi Həmidov, Əlyazmalar İnstitutunun elmi katibi filologiya üzrə fəlsəfə doktoru, dosent Əzizağa Nəcəfov və başqaları çıxış edərək Nizami yaradıcılığının zənginliyi barədə fikirlərini bölüşdülər.

Tədbirdə həmçinin "Nizami Gəncəvinin əlyazmaları dünya kitabxanalarında" adlı elektron məlumat bazası da təqdim edildi.

Sonda tədbir iştirakçıları Milli Kitabxananın fondu üçün nəşr edilən Nizami əlyazmalarının sərgisi ilə tanış oldular.

**Nurəddin**

# Türk dünyasının fikir tarixində silinməz iz qoymuş şəxsiyyət

## "Ömər Faiq Nemanzadə" fotoalbomu təqdim edildi

əvvəli səh. 1-də

Muzeyin icraçı direktoru Fərhad Cabbarovun və Ömər Faiq Nemanzadənin nəticəsi Ülviyyə Pepinovanın tərtibçiləri olduğu fotoalboma böyük maarifçinin varisləri tərəfindən muzeyə hədiyyə olunmuş materiallar da daxil edilib.

Fərhad Cabbarov bildirdi ki, nəşrdə təkcə Nemanzadənin və onun ailə üzvlərinin deyil, Azərbaycanın ictimai həyatında, maarifçiliyin inkişafında xidmətləri olmuş bir çox insanların fotoşəkillərinə yer verilib: "Ömər Faiq əfəndinin ana tərəfdən qohumları olan məşhur Pepinovlar nəslinin nümayəndələrinin, həmçinin Şəfiqə Əfəndizadənin, Məmmədzəki və Münirə Dursunzadələrin bəzi fotoları da ilk dəfə məhz bu albomda nəşr olunub. Fotoalbomun ərsəyə gəlməsi Ömər Faiq Nemanzadənin həyatının və irsinin öyrənilməsi, eləcə də həmin dövrün tədqiqi baxımından bir təkan oldu".





Professor Solmaz Rüstəmova-Tohidi, Nemanzadənin nəvəsi Fuad Pepinov, nəticəsi Ülviyyə Pepinova, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Elm şöbəsinin müdiri İradə Musayeva, AMEA Tarix İnstitutunun şöbə müdiri Kamran İsmayılov Ö.F.Nemanzadənin həyat və yaradıcılığı barədə fikirlərini bölüşdülər.

Ailə üzvləri mətbuat və maarif fədaisinin yubileyinin dövlət səviyyəsində qeyd edilməsinə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirdilər.

Qeyd olundu ki, Azərbaycanın, eləcə də bütün Türk dünyasının ictimai-siyasi fikir tarixində xüsusi yeri olan Ö.F.Nemanzadə siyasi publisistikanın əsasını qoyanlardan idi. Onun irsi daha dərindən araşdırılmalıdır. "Molla Nəsrəddin"in yaradılmasında Mirzə Cəlil qədər Nemanzadənin də əməyi var. Çıxışçılarda həmçinin onun türkçülük və islam dəyərləri ilə bağlı vacib məqamların əks olunduğu məqalələrinin əhəmiyyəti də vurğulandı.

Sonda qonaqlar "Ömər Faiq Nemanzadə" fotoalbomu ilə tanış oldular.

**Lalə**

# "Sən elə bir zirvəsən"

## Heydər Əliyevin 100 illiyinə həsr edilmiş ifaçılıq müsabiqəsi

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Sən elə bir zirvəsən" adlı respublika ifaçılıq müsabiqəsinə start verilib.

Müsabiqə Elm və Təhsil Nazirliyinin dəstəyi, Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin təşkilatçılığı ilə nazirliyin sistemində fəaliyyət göstərən peşə və orta ixtisas təhsili müəssisələrinin şagird və tələbələri arasında 4 nominasiya – şeir, bəstəkar mahnıları, təsnif və xalq mahnıları, milli rəqs üzrə keçirilir.

Üç mərhələdən ibarət müsabiqənin birinci mərhələsi (yanvarın 9-dan fevralın 28-dək) peşə və orta ixtisas təhsili müəssisələrini əhatə edəcək. Bu mərhələdə hər nominasiya üzrə I yeri tutan iştirakçılar martın 1-dən aprelin 4-dək zonalar üzrə keçiriləcək II mərhələyə qatılacaqlar.

Aprelin 6-dan 10-dək isə həlledici – respublika mərhələsi keçiriləcək.

# Asiya Parlament Assambleyasının sessiyasında Qərbi Azərbaycandakı tarixi irsimizdən söz açılıb

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən otuz ilə yaxın davam edən işğalı dövründə şəhər və kəndlərimiz dağıdılıb, bu torpaqlardakı bütün tarixi, mədəni və dini abidələrimiz vandalizmə məruz qalıb.




Milli Məclisin sədri Sahibə Qafarova bu sözləri yanvarın 9-da Türkiyənin Antalya şəhərində Asiya Parlament Assambleyasının 13-cü plenar sessiyasında çıxışı zamanı deyib.

İşğalçı dövlətin azərbaycanlı əhaliyə qarşı həyata keçirdiyi etnik təmizləmədən bəhs edən Milli Məclisin sədri diqqətə çatdırıb ki, hələ Qarabağda münaqişəyə başlamazdan öncə Ermənistanda yaşayan bütün azərbaycanlılar öz doğma torpaqlarından qovulmuşdu. Milli Məclisin sədri bildirib ki, müasir Ermənista dövlətinin məhz Qərbi Azərbaycan torpaqlarında yaradılmasını tarixi xəritələr və sənədlər də təsdiq edir. Tarixi şəhərimiz İrəvan 1918-ci ildə Ermənistanın paytaxtı elan edilib. 1920-ci ildə isə Zəngəzur Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilib. Bu da Azərbaycanın digər əraziləri ilə onun tərkib hissəsi olan Naxçıvanla, eləcə də Türkiyə ilə coğrafi əlaqəsinin kəsilməsinə gətirib çıxarıb.

İndiki Ermənistan adlanan ərazilərdə yaşayan azərbaycanlıların XX əsrdə bir neçə dəfə deportasiyaya məruz qaldığını xatırladan Sahibə Qafarova deportasiyaların son mərhələsinin 1988-1991-ci illərdə baş verdiyini deyib. Bildirilib ki, erməni tərəfi Qarabağda olduğu kimi, Qərbi Azərbaycanda da tarixi irsimizi məhv etmək məqsədilə bütün tarixi və dini abidələrimizi dağıdıb, şəhər və kəndlərin Azərbaycan mənşəli adlarını dəyişdirib.

Milli Məclisin sədri Asiya Parlament Assambleyasının qitənin parlamentləri arasında yaratdığı dialoq zəmini, yaxın əməkdaşlıq imkanları barədə də danışıb. Bildirilib ki, Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə bu təşkilatın Parlament Şəbəkəsinin yaradılması da eyni mərama xidmət edir. Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ümumi məqsədlərə çatmaq üçün Asiya Parlament Assambleyası ilə əməkdaşlıq etməyə hazırdır.

Bugünkü çoxtərəfli sistemin bütün ölkələrə fayda gətirəcək ciddi təkmilləşdirmələrə ehtiyacı olduğunu qeyd edən Sahibə Qafarova beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət olunmasının, beynəlxalq təşkilatların ikili standartlardan çəkinməsinin əhəmiyyətini vurğulayıb.

Qeyd edək ki, Antalyada 9-10 yanvar tarixlərində keçirilən Asiya Parlament Assambleyasının 13-cü plenar sessiyası "Dəyişən beynəlxalq dinamikada çoxtərəfliliyin təşviqi" mövzusuna həsr olunub. Sessiyanın açılışında assambleyanın fəaliyyətdə olan sədri – Türkiyə Böyük Millət Məclisinin başqanı Mustafa Şentop, assambleyanın baş katibi Məhəmməd Rza Məcidi, üzv ölkələrin parlament sədrlərinin çıxışları dinlənilib.

Qeyd olunub ki, Asiya Parlament Assambleyası Türkiyənin sədrliyi dövründə daha böyük uğurlar qazanacaq. Vurğulanıb ki, parlament diplomatiyası qlobal məkandakı bütün proseslərə təsir göstərmək imkanına malikdir.

Sessiyanın iclaslarında Azərbaycan nümayəndə heyətinin üzvləri – Milli Məclisin deputatları da çıxış ediblər. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Asiya Parlament Assambleyası sədrinin müavini seçilib. Assambleya sədrinin dörd müavini var.

***

Sessiya çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopla görüşüb. Görüşdə qeyd olunub ki, dövlət başçılarımızın şəxsi dostluq münasibətləri Azərbaycan və Türkiyə qardaşlığının, birliyinin və strateji müttəfiqliyinin bugünkü yüksək səviyyəyə çatmasında mühüm rol oynayır. Vurğulanıb ki, ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, parlamentlərimiz arasında da uğurlu və geniş əlaqələr mövcuddur.

Antalyada Milli Məclisin sədri Sahibə Qafarovanın İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf ilə də görüşü keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildiriblər ki, görüşdə ikitərəfli gündəliyin aktual məsələləri, postmünaqişə dövründə regionda mövcud olan vəziyyət və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Sahibə Qafarova Azərbaycanın regionda sülh və təhlükəsizliyin təmin olunması və əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində təşəbbüsləri haqqında məlumat verib.

# Tanınmış animasiya rejissoru Məsud Pənahinin 80 illiyi qeyd olundu

Yanvarın 10-da Azərbaycan Dövlət Film Fondunda cənublu soydaşımız, Almaniyada yaşayan tanınmış animasiya rejissoru Məsud Pənahinin 80 illik yubileyinə həsr olunan tədbir keçirilib.

Yubiley tədbiri C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası və Azərbaycan Animasiya Assosiasiyasının təşkilati dəstəyi ilə reallaşdı.

Tədbiri giriş sözü ilə Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq Məsud Pənahinin həyat və yaradıcılıq yolundan danışdı.

Qeyd etdi ki, Məsud Pənahi 10 yanvar 1943-cü ildə İranın Zəncan şəhərində dünyaya göz açıb. 1946-cı ildə ailəsi ilə Bakıya köçüb. O, 1966-cı ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1972-ci ildə isə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rəssamlıq fakültəsini və bu institutun nəzdində animasiya üzrə quruluşçu rejissor kurslarını bitirib. Burada tanınmış animasiya rejissorlarından İvan İvanov və Fyodor Xitrukdan dərs alıb.

Bakıya qayıdan Məsud Pənahi 1973-1979-cu illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında animasiya rejissoru və rəssamı kimi çalışıb. Həmin illər ərzində bir neçə animasiya kursları təşkil edərək onlarla animasiya mütəxəssisi yetişdirib. 1974-cü ildə Bakıda keçirilən VII Ümumittifaq festivalında "Bulud niyə ağlayır?" multfilminə görə 1-ci mükafata layiq görülüb.

1979-cu ildə isə Aşqabadda XII Ümumittifaq kinofestivalında "Qız qalası əfsanəsi" multfilmi ilə iştirak edib.









Əməkdar incəsənət xadimi Elçin Axundov dedi ki, Məsud Pənahi istedadlı və yaradıcı sənətkardır. Yaradıcılığında azərbaycançılıq, vətənpərvərlik çox dolğun və aydın şəkildə əksini tapıb. Bu onun Berlindəki Azərbaycan diasporunun dəstəyi ilə 2012-ci ildə çəkdiyi və Xocalı soyqırımından bəhs edən "Sükutun pozulması" animasiya filmində daha aydın hiss edilir. O, əsərlərində görkəmli bəstəkarlar Arif Məlikov və Xəyyam Mirzəzadənin yaradıcılığından ustalıqla bəhrələnib.

Tədbirə Almaniyadan onlayn qoşulan Məsud Pənahi yubileyinin qeyd olunmasına görə Mədəniyyət Nazirliyinə, Azərbaycan Dövlət Film Fonduna, "Azərbaycanfilm" kinostudiyasına və Azərbaycan Animasiya Assosiasiyasına təşəkkürünü bildirdi Vətən müharibəsində şanlı Qələbəyə görə bütün xalqımızı təbrik etdi. Cəmil Quliyev sənətkara 80 illik yubileyi münasibətilə xoş arzularını çatdırdı.

Rejissorun yaxın qohumu Teymur Quliyev ailələri adından tədbirin təşkilində əməyi olan hər kəsə minnətdarlığını bildirdi.

Sonda Dövlət Film Fondu tərəfindən bərpa olunmuş "Qız qalası əfsanəsi" və "Günlərin bir günündə..." animasiya filmləri, həmçinin vaxtilə Məsud Pənahi tərəfindən fonda təqdim olunmuş "Xoruz" filmi nümayiş etdirildi.

**S.Fərəcov**

## Hüqonun qəhrəmanları Akademik Musiqili Teatrda...

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında fransız yazıçısı Viktor Hüqonun "Paris Notr-Dam kilsəsi" romanının motivləri əsasında Samir Qulamovun səhnələşdirdiyi "Paris Notr-Dama ithafı" tamaşası yanvarın 8-də növbəti dəfə oynanılıb.



Teatrın repertuarındakı maraqlı nümunələrdən olan tamaşa Avropanın əzəmətli abidələrindən biri – Paris Notr-Dam kilsəsində 2019-cu il aprelin 15-də baş vermiş yanğın hadisəsinə ithaf edilib. Ümumbəşəri irsə hər zaman xüsusi önəm verən Azərbaycan teatrı bu hadisəyə biganə qalmadığını Hüqonun qəhrəmanlarını səhnəyə gətirməklə göstərib.

Tamaşanın quruluşçu rejissoru Samir Qulamov, ideya müəllifi Əməkdar incəsənət xadimi Əliqismət Lalayevdir.

## ..."Solğun çiçəklər" isə Şuşa teatrının səhnəsində

Yanvarın 14-də Şuşa Dövlət Musiqili Dram Teatrında Cəfər Cabbarlının "Solğun çiçəklər" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olunacaq. Səhnə əsərinə teatrın rejissoru Lalə Şirinova quruluş verib.




Dəfələrlə müxtəlif teatrlarda səhnəyə qoyulan "Solğun çiçəklər" görkəmli dramaturqun ailə-məişət mövzusunda yazdığı ilk sentimental melodramatik əsəridir. Dram Saranın əmisi oğluna olan məhəbbətindən və Saranın analığı Gülnisənin cinayətindən bəhs edir. Gülnisə Saranın atasını zəhərləməklə kifayətlənməyib onun bütün var-dövlətini də ələ keçirmək istəyir. Bu işlərin üstü açılmasın deyə Bəhramı Saradan ayırıb öz doğma qızıyla evləndirir. Sara vəfasızlığın qurbanı olur...

## "Heydər Əliyev ensiklopediyası" hazırlanacaq

Azərbaycan Milli Elmlər Akademiyasında (AMEA) "Heydər Əliyev ensiklopediyası" hazırlanacaq. Bununla bağlı işçi qrupu da yaradılıb.



Bu barədə yanvarın 10-da AMEA və "Azərbaycan" qəzetinin birgə təşkilatçılığı ilə keçirilən "Heydər Əliyev: dövlətçilik idealları və müasir dövr" mövzusunda elmi konfransda akademiyanın prezidenti İsa Həbibbəyli məlumat verib.

Elmi konfransın AMEA-da "Heydər Əliyev İli" çərçivəsində ilk tədbir olduğunu deyən akademik İsa Həbibbəyli Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə xalqımız və dövlətimiz qarşısında tarixi xidmətlərindən, Azərbaycan elminin inkişafına göstərdiyi diqqət və qayğıdan bəhs edib.

Konfransda "Heydər Əliyev və mətbuat siyasəti", "Azərbaycanda təbiət elmlərinin və aqrar elmin inkişafında Heydər Əliyevin rolu", "Heydər Əliyev və Azərbaycanda müasir dövlətçilik ideyaları", "Heydər Əliyev və Azərbaycan incəsənəti" və digər mövzularda məruzələr dinlənilib.

## Qardaş köməyi

### Azərbaycan Pakistana daha 2 milyon dollar yardım göstərəcək

Yanvarın 9-da Cenevrədə BMT və Pakistanın birgə təşkilatçılığı ilə "İqlimə davamlı Pakistan" mövzusunda beynəlxalq konfrans keçirilib. Konfransın məqsədi ötən ilin avqust ayında Pakistanda baş vermiş təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılmasına və yenidənqurma işlərinin həyata keçirilməsinə dəstək məqsədilə lazımi maliyyə resurslarının cəlb edilməsidir.



Tədbirin açılış hissəsində təşkilatçı qismində Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərif və BMT-nin Baş katibi Antonio Quterreş çıxış edib, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın videomüraciəti yayımlanıb.

46 ölkə, eləcə də 48 beynəlxalq maliyyə və vətəndaş cəmiyyəti institutu nümayəndələrinin qatıldığı tədbirdə Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov videokonfrans vasitəsilə çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, çıxışda dost və qardaş Pakistan xalqının ağrı-acısının hər zaman Azərbaycan tərəfindən bölüşüldüyü vurğulanıb. Qeyd olunub ki, 2010-cu ildən etibarən bu ölkədə müxtəlif vaxtlarda baş vermiş daşqınların fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə 7 milyon dollara yaxın yardım göstərilib. Dost ölkənin tarixinin ən ağır təbii fəlakəti hesab edilən son daşqınların səbəb olduğu dağıntıların aradan qaldırılması məqsədilə 2022-ci ilin avqust ayında Azərbaycan Pakistana 2 milyon dolları məbləğində maliyyə yardımı edib. Nazir müavini həmçinin diqqətə çatdırıb ki, fəsadların miqyası nəzərə alınaraq Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, Pakistana əlavə 2 milyon dollar həcmində humanitar məqsədli maliyyə yardımı göstəriləcək.

Qeyd edək ki, 2022-ci ildə baş vermiş daşqınlar Pakistanda 15 min insanın ölümünə və yaralanmasına, eləcə də 33 milyon insanın köçkün düşməsinə səbəb olub.

## Şəhid Vüsal Babayevin xatirəsi anılıb

Vətən müharibəsi şəhidi Vüsal Babayevin 30 yaşı yanvarın 8-də Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) X.Natəvan adına 4 nömrəli kitabxana filialında qeyd edilib.



Əvvəlcə ikinci Fəxri xiyabanda şəhidin məzarı ziyarət olunub.

Anım tədbirində baş leytenant Vüsal Babayevin həyatından, döyüş yolundan söz açılıb. Vurğulanıb ki, o, ömrünün ən gözəl çağında Vətən uğrunda canını qurban verib.

Şagirdlər şəhid Vüsal Babayevə həsr edilmiş şeirlər söyləyiblər.

Yasamal rayon MKS-nin 4 nömrəli kitabxana filialının müdiri Aynur Babayeva həyat yoldaşının xatirəsinə göstərilən ehtirama görə anım tədbirinə qatılanlara təşəkkürünü bildirib, xatirələrini bölüşüb.

Vüsal Babayev 2020-ci il oktyabrın 25-də həlak olub. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

## "Bir qərinə keçsə də, unutmadıq!"

Hər bir xalqın özünü dərk etməsində dönüş nöqtəsi olan, qan yaddaşında silinməz iz qoyan hadisələr var. 1990-cı il yanvarın 20-nə keçən gecə Azərbaycan tarixinə əbədi yazılıb. Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş o qanlı gecədən bir qərinə – 33 il keçir...

Yanvarın 18-də Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində "Bir qərinə keçsə də, unutmadıq!" adlı tədbir keçiriləcək.

Tədbirdə 20 Yanvar hadisələrdən söhbət açılacaq, o qanlı gecənin günahsız qurbanlarına həsr olunmuş videoçarx nümayiş etdiriləcək. Beynəlxalq hərbi mahnılar müsabiqəsinin mükafatçısı Rauf Məmmədzadənin, respublika və beynəlxalq müsabiqələr laureatı pianoçu Əli Vahidov və tələbələrinin ifasında vətənpərvərlik ruhunda musiqi nömrələri səsləndiriləcək.

# Prezidentin xüsusi nümayəndəsi Qubadlıda görüləcək işlərdən danışıb

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev Qubadlı Rayon İcra Hakimiyyətində (Sumqayıt şəhərində yerləşir) rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb.



Prezidentin xüsusi nümayəndəsi Qubadlı rayonunda aparılacaq bərpa-quruculuq işləri, Qubadlı kəndlərinin yenidən qurulması və burada mövcud olmuş iqtisadiyyat sahələrinin dirçəldilməsi üçün görüləcək işlər haqqında rayon ictimaiyyətinin nümayəndələrinə ətraflı məlumat verib.

Böyük Qayıdışın ilk qədəmlərinin qoyulduğu Zəngilan rayonunun Ağalı kəndinə keçmiş məcburi köçkünlərin köçürülməsindən bəhs edən Vahid Hacıyev bu prosesin davamlı olaraq bütün Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan rayonlarda, o cümlədən Qubadlıda həyata keçiriləcəyini deyib.

Sonra xüsusi nümayəndəliyin əməkdaşları Qubadlı Rayon İcra Hakimiyyəti nəzdində yaradılmış muzeylə tanış olublar.

## "Səni kim unudar..."

Sumqayıt RMİ Xızı rayon nümayəndəliyinin təşkilatçılığı ilə Azərbaycan poeziyasının parlaq simalarından olan Mikayıl Müşfiqin (1908-1938) xatirəsi vəfatının 85-ci ildönümündə (6 yanvar) yad edilib.



Xızı rayonundakı Mikayıl Müşfiqin Xatirə Muzeyində "Səni kim unudar..." adlı tədbir keçirilib. Əməkdar müəllim, şairə Ofeliya Babayeva, Sumqayıt RMİ-nin Xızı rayonu üzrə nümayəndəsi Mövsüm Bağırov, ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Qurbansoy, sənətşünaslıq üzrə elmlər doktoru Abbasqulu Nəcəfzadə, Mikayıl Müşfiqin əmisi nəvəsi Vahab İsmayılzadə və başqaları çıxış edərək nakam şairin yaradıcılığından söz açıblar.

Bildirilib ki, M.Müşfiqin əsərləri gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və gənclərimizə vətənpərvərlik hisslərinin aşılanması baxımından dəyərli xəzinədir.

Daha sonra Xızı məktəbliləri şairin şeirlərini söyləyiblər.

***

Masallı RMİ Masallı rayon MKS-nin kitabxana filialının, Gənclərin İnkişaf və Karyera Mərkəzi Masallı nümayəndəliyinin birgə təşkilatçılığı ilə Mikayıl Müşfiqin anım gününə həsr olunmuş tədbir keçirilib. Kitab sərgisi ilə tanışlıqdan sonra "1109 nömrəli məhbus" filmi nümayiş etdirilib.

# Tarix yaradan şəxsiyyət



Xəbər verdiyimiz kimi, dövlət başçısının müvafiq sərəncamı ilə 2023-cü il Ulu öndər, mədəniyyətimizin böyük himayədarı Heydər Əliyevin 100 illiyi münasibətilə ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Bölgələrdəki mədəniyyət müəssisələrində əlamətdar illə bağlı bir sıra tədbirlər keçirilib.

Sabirabad Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyindəki Şirvan Şəhər Mərkəzi Kitabxanasında "Heydər Əliyev İli" Ulu öndərə ümumxalq məhəbbətinin ifadəsidir" adlı tədbir təşkil olunub. Kitabxananın əməkdaşları Heydər Əliyevin həyatı və fəaliyyəti, Heydər Əliyev irsinin kitabxanalarda təbliği və digər mövzularda çıxış ediblər.

Hacıqabuldakı Heydər Əliyev Mərkəzində rayon MKS-lə birgə keçirilən tədbirdə əvvəlcə kitab sərgisinə və Ümummilli liderin həyat və fəaliyyətinin müxtəlif anlarını əks etdirən fotolara baxış olub. Çıxış edənlər bütün mənalı ömrünü Azərbaycanın etibarlı gələcəyinə həsr etmiş Heydər Əliyevin həyat və fəaliyyətindən, Vətən-xalq qarşısındakı misilsiz xidmətlərindən söz açıblar. Sonda "Əbədiyyət yolu" sənədli filmi nümayiş olunub.

***

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanasında "Heydər Əliyev İli" ilə əlaqədar "Tarix yaradan şəxsiyyət" adlı kitab sərgisi təşkil edilib.

***

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Gənclərin inkişafında Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib. Böyük siyasətçinin ömür yolundan bəhs edən "Salnamə" sənədli filmi nümayiş olunub.

***



Şəki RMİ Şəki Şəhər Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə çıxış edənlər Ümummilli liderin ölkəmizi mürəkkəb tarixi-siyasi sınaqlardan uğurla çıxarmasından, xalqımıza müasir müstəqil Azərbaycan dövlətini miras qoymasından danışıblar. Şəki şəhər 2 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri Heydər Əliyevə həsr olunan şeirlər söyləyiblər.

***



Ağstafa RMİ Ağstafa Rayon Mərkəzi Kitabxanasında Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlər planı müzakirə edilib. Tədbirdə diqqətə çatdırılıb ki, Heydər Əliyevin tariximizdəki misilsiz fəaliyyəti mədəniyyətin müxtəlif sahələrində də əksini tapıb. Qeyd olunub ki, Ağstafa rayon MKS-də il ərzində böyük rəhbərin 100 illiyinə həsr olunmuş kitab sərgiləri, şeir və inşa müsabiqələri və s. silsilə tədbirlər keçiriləcək.

***

Kürdəmir RMİ-nin əhatə etdiyi Beyləqan rayonundakı mədəniyyət müəssisələrinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" Azərbaycana və dünyaya yüksək ideyalar aşılayacaq" mövzusunda tədbir keçirilib. Ümummilli liderin ölkəmizə rəhbərliyinin hər iki dövründən, o cümlədən 1993-cü ildə müstəqil Azərbaycanı parçalanmaq təhlükəsindən və vətəndaş qarşıdurmasından xilas etməsindən söz açılıb.

**Hazırladı: N.Məmmədli**

# Bölgələrdəki muzeylərə qısa ekskurs: Masallı



Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyində tarixin müxtəlif dövrlərinə aid arxeoloji tapıntılar, məişət və zinət-bəzək əşyaları, əmək alətləri, milli geyim nümunələri saxlanılır.

Muzeydə maraq doğuran eksponatlar arasında ipək sapdan toxunmuş və üzərinə Şərq bazarı illüstrasiyası işlənmiş qobelen də var. Xovsuz xalça növü kimi tanıdığımız qobelen sənəti ölkəmizdə də tarixən geniş yayılıb.

Orta əsrlər dövrünə aid olan eksponatlardan biri də toxuculuq aləti vazdır. Vazın yuxarı hissəsində su tökmək üçün hissə, gövdəsində isə dəlik var və iki qoldan ibarətdir. Bu qolların üzərində çıxıntılar, qanadlar həkk olunub. Bu da alətdə eyni zamanda 3 nəfərin işləməsi üçündür.

Muzeyin direktoru Əntiqə Tağıyeva bildirib ki, vaz kənaf bitkisindən alınan ipdən qədim xalçaların toxunmasında istifadə olunub. Orta əsrlərdə nənələrimiz bu nazik ipləri xüsusi formada qalınlaşdırırmışlar. Lanqa deyilən bir alət də var, muzeydə tavandan asılıb. İpin bir ucunu fırlanan lanqaya bağlayırdılar və sap fırlandıqca yumaq formasında yığılırdı. Bu yumaqlar isə xalça və ya həsirin toxunmasında istifadə olunub.

Tarixi və maraqlı eksponatlardan biri də çəngürü tavasıdır. Bu tava gildən hazırlanıb və orta əsrlər dövrünə aiddir. Nənələrimiz bu tavada düyü unundan xüsusi şirniyyat bişiriblər.

Hazırda Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyinin fondunda bölgənin tarixini əks etdirən 9 mindən çox eksponat qorunub saxlanılır.

# Vətəni canından əziz bilənlər

Sumqayıt RMİ Sumqayıt şəhər Bülbül adına 2 nömrəli Uşaq incəsənət məktəbinin kollektivi Vətən müharibəsi şəhidi Hüseyn Yusifovun ailəsini ziyarət edib.

***



Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə Milli Qəhrəman, Birinci Qarabağ müharibəsi şəhidi Mübariz Əhmədovun (1963-1992) anadan olmasının 60 illiyi ilə əlaqədar "Şəhidlər unudulmur" adlı tədbir keçirilib. Kitabxananın oxucuları şəhidlərə, qəhrəmanlara həsr olunmuş şeirlər söyləyiblər.

***

Ağstafa RMİ Qazax Rayon Mərkəzi Kitabxanasının əməkdaşları Birinci Qarabağ müharibəsi şəhidi Fidat Məmmədovun ailəsi ilə görüşüblər. Görüş zamanı şəhidin qısa və şərəfli ömür yoluna nəzər salınıb.

# Tolerantlığın Azərbaycan nümunəsi: kilsələrdə Milad bayramı qeyd edilib



Pravoslav xristianlar tərəfindən yanvarın 7-də qeyd edilən İsa peyğəmbərin mövludu günü – Milad bayramı münasibətilə alban-udi icmasının yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki müqəddəs Yelisey adına "Cotari" kilsəsində mərasim keçirilib.

Kilsənin önündə açılan bayram süfrəsi xüsusilə uşaqların sevincinə səbəb olub. Bayram üçün hər kəs toplaşdıqdan sonra dini ayinlərin icrası üçün kilsədə mərasim təşkil edilib.

Alban-udi icmasının rəhbəri Robert Mobili Milad bayramının mahiyyətindən, tolerantlıq diyarı olan Azərbaycanda dini ayinlərin icrası üçün yaradılan şəraitdən danışıb. Qeyd edib ki, Azərbaycan müxtəlif millətlərin, dini konfessiyaların yanaşı yaşadığı unikal ölkədir. Bütün dinlərin nümayəndələrinə öz dini etiqad və azadlıqlarını ifadə etmək, dini ayin və mərasimlərini sərbəst yerinə yetirmək üçün şərait yaradılıb: "Qarabağdakı torpaqlarımızda olan müqəddəs irsimiz, alban kilsələri otuz ilə yaxın əsir idi. Ali Baş Komandanımızın rəhbərliyi, rəşadətli Azərbaycan əsgərinin sayəsində, nəhayət, biz dini ocaqlarımıza gedə bildik, orada ibadət elədik, şəhidlərimizi yada saldıq, şamlar yandırdıq".

Robert Mobili bildirib ki, Azərbaycan müstəqilliyini bərpa edəndən sonra digər dini icmalar kimi, alban-udi xristian icması üçün də çox gözəl şərait yaranıb. İndi biz Milad və Pasxa bayramlarını daha geniş və rahat qeyd edə bilirik.

Alban-udi xristian icmasının sədr müavini Rafik Danakari "Cotari" kilsəsinin əsaslı şəkildə bərpasının da tolerantlığa gözəl nümunə olduğunu bildirib. Bundan əlavə, Nic qəsəbəsində yerləşən ən qədim kilsələrdən biri ötən il Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa olunaraq udilərin ixtiyarına verilib.

"Bu gün həmişəki kimi azərbaycanlılar, ləzgilər və digər xalqların nümayəndələri bizimlə bərabər bayram tədbirində iştirak edirlər. Bu kilsələri Azərbaycanda IV-V əsrlərdə bizim atalarımız tikiblər. Bu təkcə udilər üçün yox, Qafqaz Albaniyasında yaşayan bütün xalqlar üçün tikilmiş məbədlərdir. Ona görə ki, bizim Allahımız birdir, bizi yaradan tək Allahdır, biz də tək Allaha qulluq edirik", - deyə o vurğulayıb.

Çıxışlarda vurğulanıb ki, müsəlmanların və xristianların mehriban şəkildə birgə yaşadığı Nic qəsəbəsi tolerantlığın kiçik modeli hesab edilir.

Qeyd edək ki, hazırda Nic qəsəbəsində üç kilsə, iki məscid var. Altı min əhalisi olan qəsəbənin sakinlərinin yarıdan çoxunu alban-udi icması təşkil edir. Nicdəki məktəblərin ibtidai siniflərində udi dili tədris olunur, kilsədə dini ayinlər onların ana dilində icra edilir.

***

Milad bayramı Xaçmazda yerləşən "Müqəddəs möcüzəvi Nikolay" pravoslav kilsəsində də qeyd olunub. Ölkəmizin şimal rayonlarında yaşayan xristian icmasının üzvləri kilsəyə gələrək dini ayinlər icra edib, dualar oxuyublar.

Mərasimdə Prezident İlham Əliyevin Azərbaycanın pravoslav xristian icmasına ünvanladığı bayram təbriki də oxunub. Vurğulanıb ki, Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularının təntənəsini təcəssüm etdirir.

"Müqəddəs möcüzəvi Nikolay" pravoslav kilsəsinin baş keşişi, ieromonax Qeorqi Budaqov bildirib ki, İsa peyğəmbərin mübarək mövludu ilə əlamətdar olan Milad bayramı hər il yüksək səviyyədə qeyd olunur: "Azərbaycanda bütün dinlərin nümayəndələri öz inanclarında azaddırlar. Prezidentimiz dini icmaları daim diqqət mərkəzində saxlayır. Çox sevindirici haldır ki, biz Azərbaycan kimi tolerant ölkədə yaşayırıq. Bütün xristian icmasının üzvlərini bayram münasibətilə təbrik edirəm. Qoy, dünyada həmişə sülh və əmin-amanlıq olsun".





Dini ayinlərin icrasından sonra bayram şirniyyatları paylanılıb.

Xaçmaz şəhərindəki "Müqəddəs möcüzəvi Nikolay" pravoslav kilsəsi 1946-cı ildən fəaliyyət göstərir.

***

Gəncədə yerləşən Aleksandr Nevski pravoslav kilsəsində də Milad bayramı keçirilib. Şəhərdə yaşayan pravoslav xristianlar bayramı birgə qeyd ediblər.

Əvvəlcə Prezident İlham Əliyevin Milad bayramı ilə bağlı təbriki oxunub. Sonra Aleksandr Nevski kilsəsinin dini heyəti İsa peyğəmbərin mövludu ilə bağlı ayinlər icra edib.

Kilsədə şamlar yandırılıb, sülh, əmin-amanlıq və xoşbəxtlik diləkləri ilə dualar oxunub.

Gəncə şəhərində təxminən 200-dən artıq pravoslav ailə yaşayır. Qərb bölgəsində yeganə kilsə olan Aleksandr Nevski kilsəsi 1887-ci ildə inşa edilib.

# Ötən il Qəbələ qoruğunun 10-dan çox ölkədən ziyarətçisi olub



Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin tabeliyində fəaliyyət göstərən Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna ötən il 3383 nəfər yerli və xarici turist səfər edib.

Bu barədə məlumat verən qoruğun direktoru Zahir Kərimov bildirib ki, ziyarətçilərin 2528 nəfəri yerli, 855 nəfəri isə xarici ölkələrdən gələn turistlər olub.

Direktorun sözlərinə görə, əcnəbi turistlər arasında Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Fransa, Böyük Britaniya, Pakistan, Hindistan, Kanada, Türkiyə, İtaliya, Polşa, Almaniya, İspaniya, İsrail və digər ölkələrdən gələnlər olub.

Ziyarətçilərə qoruq ərazisində görülən işlər, Qəbələ Arxeoloji Ekspedisiyasının Antik şəhər yeri, Səlbir və Qala ərazilərində dövri olaraq aparılan arxeoloji qazıntılar, aşkara çıxarılan maddi mədəniyyət nümunələri, həmçinin Qəbələ Arxeoloji Mərkəzinin sərgi salonunda nümayiş olunan eksponatlar barədə məlumat verilib.

## Abonement konsertlər davam edəcək

Ötən il Mədəniyyət Nazirliyinin dəstəyi ilə Azərbaycan Dövlət Akademik Filarmoniyası tərəfindən təşkil olunan abonement konsertlər bu il də davam edəcək.

Konsertlər hər həftənin şənbə günləri Kamera və Orqan Musiqisi Zalında keçiriləcək. Yanvar ayında üç konsert nəzərdə tutulub.

Yanvarın 14-də F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının Xor qrupu "Mahnı çələngi" adlı proqramla dinləyicilərin qarşısına çıxacaq. Ayın 21-də Azərbaycan Dövlət Simli Kvartetinin konserti keçiriləcək. Yanvarın 28-də isə "Cadenza" orkestri məktəblilər üçün maraqlı proqram təqdim edəcək.

Abonement konsertində iştirak etmək istəyənlər biletləri kassalardan və iticket.az saytından əldə edə bilərlər. Bir abonement bileti ay ərzində təşkil olunan konsertlər üçün keçərlidir.

## Xurşidbanu Natəvan haqqında daha bir ekran əsəri

Azərbaycan Televiziyasında XIX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xan qızı Xurşidbanu Natəvan haqqında film çəkilib. Ekran əsəri yanvarın 8-də "Mədəniyyət" kanalında yayımlanıb.



Natəvanın 190 illiyi münasibətilə ərsəyə gələn televiziya filminin ideya müəllifi və layihə rəhbəri Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfova, ssenari müəllifi folklorşünas şair-dramaturq Fəridə Hicran Vəliyevadır. F.Xələfova həm də filmdə Natəvan obrazını canlandırıb.

O qeyd edib ki, film üzərində iş ötən ilin yayında başlayıb və payızın sonlarında, artıq qarlı günlərdə Şuşada tamamlanıb. Filmin çəkilişləri Ağdamda, Şahbulaq qalasında, son kadrları isə mədəniyyət paytaxtımız Şuşada aparılıb: "Natəvan xanımın obrazı üzərində işləyərkən məqsədimiz həm də Qarabağ xanlığının geyim mədəniyyətinin elmi-etnoqrafik təsvirini yaratmaq olub. Bu işdə məsləhətçimiz Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya elmi fond şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktoru, "Qarabağ geyimləri kataloqu" kitabının müəllifi Gülzadə Abdulova idi. Bu layihəni ərsəyə gətirdiyimizə görə çox xoşbəxtəm...".

## Azərbaycanlı snayper Ziba Qəniyeva haqqında film çəkilib



İkinci Dünya müharibəsində snayper kimi ad çıxarmış azərbaycanlı Ziba Qəniyeva haqqında "Özbəkfilm" və "Belarusfilm" studiyalarının birgə istehsalı olan ekran əsəri çəkilib. Bu barədə Azərbaycan Kinematoqrafçılar İttifaqından məlumat verilib.

Ziba Qəniyeva əslən Şamaxı rayonundandır. 1923-cü ildə Özbəkistanın Gülistan şəhərində doğulub. Atası Paşa Qəniyev müəllim və tərcüməçi idi. Anası özbək olub. 1937-ci ildə valideynləri repressiyaya məruz qalıblar. Sənətə böyük marağı olan Ziba Daşkəndə gedərək Özbəkistan Filarmoniyasının xoreoqrafiya şöbəsində məşğul olmağa başlayır. 1940-cı ildə Moskvaya gedir və Dövlət Teatr Sənəti İnstitutuna daxil olur.

1941-ci ildə müharibənin başlaması onun sənət arzularını yarımçıq qoyur. Ziba tibb bacısı peşəsini öyrənmişdi, hospitalda çalışırdı. Sonra qısamüddətli atıcılıq kurslarına yazılır. 1941-ci il noyabrın 7-də Moskvada, Qızıl meydanda keçirilən paradda iştirak edir və cəbhəyə yollanır. Ziba Qəniyevanın cəbhədəki hünəri, snayperlik bacarığı həm müharibə illərində, həm də ondan sonrakı illərdə dəfələrlə qəzet materiallarının mövzusu olub. O, döyüşlərdə yüzdən çox faşist məhv etmişdi. Tanınmış yazıçı Boris Polevoy onun haqqında "Pravda" qəzetində yazmışdı.



Müharibədən sonra Ziba Qəniyeva, qısa müddətə də olsa, sənətə qayıdır. 1945-ci ildə "Daşkəndfilm"in çəkdiyi "Tahir və Zöhrə" filmində fars şahzadəsi rolunu oynayır. Sonra azərbaycanlı diplomat, SSRİ-nin Türkiyədəki müvəqqəti işlər vəkili Tofiq Qədirovla ailə qurur. Cütlük Moskvaya qayıtdıqdan sonra bir oğulları olur.

Ziba Qəniyeva Moskvada şərqşünaslıq üzrə ali təhsil alır, filologiya elmləri namizədi dissertasiyası müdafiə edir. 1955-56-cı illərdə Bakı Ali Partiya Məktəbində kafedra müdiri olur. 1956-cı ildən isə SSRİ EA Şərqşünaslıq İnstitutunda elmi işçi kimi fəaliyyət göstərir.

Moskvada Ziba Qəniyeva azərbaycanlı sənətçilərlə, o cümlədən məşhur rəssam Tahir Salahovla dostluq edib. Tahir Salahov onun portretini çəkdikdən sonra heykəltəraş Cəlal Qaryağdı "Snayper Ziba Qəniyeva" adlı əsər yaradıb.

Ziba Qəniyeva 2010-cu ildə Moskvada vəfat edib.

## "Cırtdan" beynəlxalq festivallara ayaq açmaq niyyətindədir

1969-cu ildə "Azərbaycanfilm" kinostudiyasında çəkilmiş və Azərbaycanın animasiya kinosu tarixində xüsusi yeri olan "Cırtdan" müasir üsullarla bərpa edildikdən sonra beynəlxalq film festivallarına ayaq açmaq niyyətindədir.

Cizgi filmi Mədəniyyət Nazirliyinin dəstəyi, Azərbaycan Animasiya Assosiasiyası, Britaniyanın Kino Klassika Fondu, prodüser-restavrator Daniel Bird və Polşada fəaliyyət göstərən "Fixafilm"in birgə səyi ilə bərpa edilib.

Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamaliyev bildirib ki, restavrasiya prosesi təxminən üç il çəkib. Bərpa olunmuş "Cırtdan"ın premyerası ötən il Bakıda 5-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalında olub. Film həmçinin Böyük Britaniyada "Klassika" strimінq platformasında yayımlanıb və beləliklə, beynəlxalq festivalların diqqətini çəkə bilər. "Azərbaycanfilm" kinostudiyası artıq filmi "Youtube" platformasında yerləşdirib.

Rejissorları Ağanağı Axundov və Yalçın Əfəndiyev olan "Cırtdan" filmi təsviri həllin orijinallığı ilə diqqət çəkir. Müəlliflər filmdə Azərbaycan xalçası stilistikasından istifadə ediblər, bütün qəhrəmanlar, eləcə də predmetlər və fonlar "xalça" üslubunda işlənib. Filmin bəstəkarı Oqtay Zülfüqarov Qərb musiqi alətləri ilə birlikdə tarın da səsləndiyi gözəl musiqi tərtibatı verib. Yarım əsr öncə tətbiq edilən bu yenilikçi stilistikası ilə "Cırtdan" müasir tamaşaçı üçün də maraqlı olaraq qalır.

## "Bu yaşda əsərlərimə qıraqdan baxmaq daha maraqlı gəlir..."

### Əməkdar rəssam Eldar Qurbanovun "Ömürdən səhifələr" adlı yubiley sərgisi açılıb

İçərişəhərdə yerləşən "Zaman Art" qalereyasında Əməkdar rəssam Eldar Qurbanovun 75 illik yubileyinə həsr olunmuş "Ömürdən səhifələr" adlı fərdi sərgisi keçirilir.

Yanvarın 6-da açılışı olan sərgi həm adı, həm də seçilmiş əsərlərlə maraq doğurur. Xüsusilə də rəssamın rəng seçiminin təzadları ziyarətçilərin diqqətini cəlb edir.

Sərgi ilə bağlı məlumat verən rəssam bildirdi ki, emalatxanasındakı 200-dən artıq əsərdən 92-ni nümayiş etdirmək üçün seçib. Bu qədər əsərin qalereyada eyni vaxtda sərgilənməsi mümkün olmadığı üçün nümayişi üç mərhələdə reallaşdırmaq qərara alınıb.

Qeyd edək ki, birinci mərhələdə rəssamın son illərdə ərsəyə gətirdiyi müxtəlif mövzulu peyzaj və portretlər sərgilənir. Yanvarın 21-də isə sərginin ikinci mərhələsi ziyarətçiləri qəbul edəcək. Bu mərhələdə 20 Yanvar hadisələrinə həsr olunmuş əsərlərə yer ayrılıb. Əsərlərdə həmin illərin ağrı-acıları əks olunub. Üçüncü mərhələ 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunacaq. Həmin sərgi qadın portretləri ilə işıqlanacaq. Beləliklə, "Ömürdən səhifələr" sərgisi üç ay sənətsevərlərin ixtiyarında olacaq.

Eldar Qurbanov 1948-ci ildə Bakıda dünyaya göz açıb. 1969-cu ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbini, 1986-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (hazırda ADPU) Bədii qrafika fakültəsini bitirib. 1979-cu ildən Rəssamlar İttifaqının üzvüdür. İlk fərdi sərgisi 1987-ci ildə açılan rəssamın bu günə kimi Çexiya, Polşa, Bolqarıstan, Meksika, İtaliya, Almaniya, ABŞ, Türkiyə və digər ölkələrdə əsərləri sərgilənib.





***

Sərgini izlədikdən sonra rəssama bir neçə sual ünvanlayıram.

*– Deyəsən, yubiley sərgisinə xüsusi hazırlaşmısınız...*

– Etiraf edim ki, yubileyi qeyd etməyi və ümumiyyətlə, fərdi sərgi keçirməyi düşünmürdüm. Əvvəlcə "Zaman Art" qalereyasından bir neçə rəssamın iştirakı ilə kollektiv sərgidə iştirak təklifi almışdım. Müzakirələr zamanı bəzi rəssam dostların bu müddətə vaxtı olmadı. Sonra mənim şəxsi sərgimi keçirmək və qalereyanın açılışını etmək qərara alındı.

*– Yubiley həm də sənət hesabatı sayılır. Həyəcan varmı?*

– Bu günə kimi çoxsaylı fərdi sərgilərim olub. Yarızarafat deyə bilərəm ki, artıq yaşımın həyəcanverici məqamı keçib. İndi mənə öz işlərimə qalereyada qıraqdan baxmaq daha maraqlı gəlir. Eyni zamanda fərdi sərgi həmkarlarım, dostlarım və sənətsevərlərlə görüş üçün bir bəhanədir. Sərgi vasitəsilə dostlarımla, həmkarlarımla görüşmək və söhbət etmək fürsətindən məmnunam...

*– Yaradıcılıq prosesiniz necə başlayır?*

– Əvvəlcədən heç bir işi planlaşdırmıram. Emosional insan olduğum üçün elə anında nə gəldisə, onu da kətana köçürürəm. Eskiz etmək, plan qurmaq məsələsi məndən uzaqdır. Əgər bir mövzu düşündümsə, ilham pərisi mütləq gələcək. Həyat o qədər maraqlı və rəngarəngdir ki, ən kiçik bir nüans belə ilham pərisinin gəlməsinə vəsilə olur.

*– Əsərlərinizin əsas qəhrəmanları qadınlardır.*

– Bəli. Çünki qadınlar Yer üzündə ən cazibədar varlıqlardır.

***

Sərginin birinci mərhələsində rəssamın 25 əsəri nümayiş olunur. Natürmort, peyzaj, portret, abstrakt mövzuların üstünlük təşkil etdiyi bu əsərlərdə sənətkarın rəng seçimi, emosionallığı və simvolizmi diqqəti cəlb edir. Avtoportretlər isə xüsusi dəyərləndirilməlidir. Nədən? Çünki yubilyarın bir müsahibəsində qeyd etdiyi kimi, o hər zaman obyektiv olmağa çalışıb. Gəncliyində nə dərəcədə insanlara inanırdısa, bu gün də elədir. Nizamı, təmizliyi, dəqiqliyi sevir. Avtoportretlərdən də bunları duymaq olur. Sənətkarın yaradıcılıq üslubunda dürüstlüyə böyük hörmətin şahidinə çevrilirik. Təsvirlər, rəssamın tərzi konkret bir fikrə uyğun gəlmir. O səbəbdən ki, bu əsərlərdə realizm fantaziyaya, fantaziya isə realizmə çox yaxındır. Rəssam hamını razı salmağa çalışmır və "gərək olduğu kimi" deyil, gördüyü və hiss etdiyi kimi rəngləyir. Ətraf aləmin heyrətamiz səmimiyyəti və aniliyi, beləcə, tabloya köçür. Sənətkar bəzən bütün kompozisiya və perspektiv qanunlarını pozaraq dünyaya parlaq, mehriban baxışlarını ortaya qoyur.

**Lalə Azəri**

"Heydər Əliyev İli"

## Mədəniyyətimizin böyük hamisi

### İllərin xronikasından



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə geniş anlamda diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

***

*(əvvəli ötən sayımızda)*

**1971-ci il 19 mart**

Heydər Əliyev Azərbaycan Teleqraf Agentliyinin (indiki AZƏRTAC) 50 illiyi münasibətilə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında keçirilən təntənəli yığıncaqda iştirak edib.

**1971-ci il 1 aprel**

Moskvada Sov. İKP-nin XXIV qurultayında nitq söyləyən Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev respublikada mədəniyyət sahəsinin inkişafından da söz açıb. Heydər Əliyev qurultayda SSRİ-nin ali partiya orqanı – Sov. İKP MK-nın üzvü seçilib.

**1971-ci il 15 aprel**

Azərbaycan SSR-yə SSRİ Nazirlər Sovetinin və Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurasının keçici "Qırmızı bayrağı"nın təqdim edilməsi mərasimində nitq söyləyən Heydər Əliyev respublikada mədəni-maarif işindən, bu sahədə qarşıda duran vəzifələrdən də bəhs edib.

**1971-ci il 3 iyun**

Heydər Əliyev Azərbaycan yazıçılarının V qurultayında nitq söyləyib. Qeyd etmək lazımdır ki, Heydər Əliyev 1971-ci ildən başlayaraq, bir qayda olaraq, Azərbaycan yazıçılarının qurultaylarında iştirak edib. O, proqram xarakterli nitqlərində ədəbiyyatın xalqın və ölkənin taleyində rolu barədə fikirlərini bölüşüb, ədəbiyyat xadimlərini ictimai həyatda fəal mövqe tutmağa çağırıb.

*"Azərbaycan ədəbiyyatı həmişə xalqın həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır. Ədəbiyyat bədii sözün gözəl nümunələrini yaradaraq zəmanəmizin yüksək romantikasını, xalqın döyüş rəşadətini, onun fədakar əməyini tərənnüm edir...*

*Yazıçı xalq üçün yaradır, öz kitablarını xalqa təqdim edir, buna görə kütlələrlə, oxucularla görüş, bilavasitə yaxınlıq ona xüsusilə coşqun ilham verir...*

*Biz istəyirik ki, yazıçılarımızın yaradıcılığı respublikanın ictimai-siyasi həyatı ilə sıx bağla olsun, onlar həyatdan ayrılmasınlar, kəskin problemlərdən və məsələlərdən kənara çəkilməsinlər, əksinə, həmişə hadisələrin qaynağında olsunlar...*

*Biz arzu edirik ki, yazıçılar öz yaratdıqları əsərlərə zamanın və günün tələbləri zirvəsindən qiymət versinlər...*

*Kim el sənətkarlarının bir-birinə qayğısını, diqqətini, öz peşəsinin sirlərini gənclərə necə həssaslıqla öyrətdiyini görübsə, yəqin ürəyində deyib: eşq olsun o sənətkara ki, öz yaradıcılığının məhdud çərçivəsində qapanıb qalmır, təkcə öz yaradıcılıq taleyini deyil, böyük sənətin gələcəyini düşünür...*

*Xalq öz təsəvvüründə yazıçının yaradıcılığını onun şəxsiyyətindən heç vaxt ayırmır. Oxucular üçün sənətkarın sözü və əməli, onun əsərləri və şəxsi idealı – qırılmaz vəhdətdir.*

*Biz yazıçıya insan qəlbinin mühəndisi deyirik. Bu adı doğrultmaq lazımdır...".*

***

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk ilindən mədəniyyət və incəsənətə diqqətin artması, bu sahədə mühüm xidmətləri olmuş insanların xatirəsinin ədəbiləşdirilməsi, yaradıcı əməyin qiymətləndirilməsi dövlət səviyyəsində müvafiq qərarlarda əksini tapıb.

**1969-cu il 30 sentyabr**

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti görkəmli Azərbaycan artisti Hüseyn Ərəblinskinin xatirəsini əbədiləşdirmək məqsədilə qərar qəbul edib. Sumqayıt Dövlət Gənclər Dram Teatrına Hüseyn Ərəblinskinin adı verilib.

***

1969-cu ildə, həmçinin respublikada elm və texnikanın, ədəbiyyat, incəsənət və arxitekturanın daha da inkişaf etdirilməsinə həvəs oyatmaq məqsədilə, dövlət tərəfindən bəyənilməyə layiq olan elmi işləri və yaradıcılıq işlərini layiqincə və geniş surətdə mükafatlandırmaq lüzumunu nəzərə alaraq, Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən Azərbaycan SSR dövlət mükafatlarının təsis olunması haqqında qərar qəbul edilib. Elm və texnika sahəsində – dörd mükafat (elm üzrə iki, texnika üzrə iki), ədəbiyyat, incəsənət və arxitektura sahəsində – üç mükafat, o cümlədən uşaqlardan ötrü yazılmış ədəbiyyat və incəsənət əsərləri üçün bir mükafat təsis edilib. Qərara əsasən, hər biri 2500 manat məbləğində müəyyən edilən mükafatlar Azərbaycan SSR dövlət mükafatları komitələrinin təqdimatı ilə iki ildə bir dəfə verilirdi. Mükafatçılara diplom və döş nişanı təqdim edilməklə "Azərbaycan SSR Dövlət mükafatı laureatı" adı verilirdi.

**1970-ci il 21 may**

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Azərbaycan xoreoqrafiya sənəti sahəsində xidmətlərinə görə və Parisdə beynəlxalq rəqs festivalında müvəffəqiyyətli iştirakı ilə əlaqədar olaraq M.F.Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının yaradıcı işçilərinə Azərbaycan SSR-in fəxri adları verilib.

Bundan əlavə, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Parisdə beynəlxalq rəqs festivalında iştirak etmiş yaradıcı heyət üzvləri Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanı ilə təltif edilib.

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Zərif duyğulu sənətkar

## Əməkdar incəsənət xadimi, teatr rejissoru Ulduz Rəfili ilə bağlı xatirlamalar

İlk milli peşəkar qadın teatr rejissoru kimi səhnə sənəti tariximizdə şöhrətlənən və layiqli yer tutan Ulduz xanımın qızlıq soyadı Rəfilidir. Bir sıra afişa və proqramlarda imzası belə yazılıb: Ulduz Rəfili-Əliyeva. Ata tərəfi Gəncə quberniyasının Borsunlu kəndindən Rəfililər, ana tərəfi isə həmin şəhərin şöhrətli Rəfibəylilər nəslindəndir. Atası Saleh bəy Oksford Universitetinin Hüquq fakültəsini bitirib. Anası Dilşad xanım isə Gəncə gimnaziyasında təhsil alıb. O gimnaziyada ki, onun yaradıcısı və direktoru Dilşad xanımın qardaşı Cavad bəy Rəfibəyli idi.

Ulduz Rəfili 1922-ci il dekabrın 15-də belə bir ziyalı ailəsində dünyaya gəlib. İbtidai məktəbə Gəncədə gedib. Qızcığazın on iki yaşı olanda nəsilləri, o cümlədən valideynləri sovet repressiyasına məruz qalıb. O, böyük bacısı Səmayə xanımla 1934-cü ildə Bakıya köçüb. Burada 92 saylı məktəbdə yeddinci sinfi bitirib. 1937–1938-ci illərdə tüğyan etməyə başlayan repressiyanın dəhşətli alovları yenidən onları qarsıb və iki bacı Moskvaya köçməklə həbsdən yaxa qurtara biliblər.

Orta məktəbi 1940-cı ildə Moskvada rus dilində bitirən Ulduz xanım bir il metroda işləyib. 1941-ci ildə orada Dəmiryolu Nəqliyyatı Mühəndisliyi İnstitutuna daxil olub və metroda işləməyə davam edib. Lakin 1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar təhsili yarımçıq qalıb. Texniki sahədə oxuyub işləməsinə baxmayaraq, o, şeirlər, ssenarilər, kiçik pyeslər yazırdı, ədəbiyyata və incəsənətə maraq göstərirdi. Müharibə qurtardıqdan sonra o, Moskvada təhsilini yarımçıq qoyaraq 1945-ci ildə Bakıya qayıdır.

Ulduz xanımın əmisi oğlu, məşhur ədəbiyyatşünas alim, professor Mikayıl Rəfili onun yaradıcılığı ilə tanış olur. Ulduzun istedad və bacarığına heyran qalan Mikayıl müəllim təkid edir ki, o, sənədlərini Azərbaycan Dövlət Teatr İnstitutunun Rejissorluq fakültəsinə versin. Uzun müzakirədən sonra razılaşırlar.

Həmin il Bakıda Mirzə Fətəli Axundzadə adına Azərbaycan Dövlət Teatr Məktəbinin bazası əsasında Dövlət Teatr İnstitutu yaradılmışdı. Ancaq instituta hələ qəbul keçirilməmişdi. İyul ayında Ulduz Rəfili Rejissorluq fakültəsinə qəbul olunur. O, təhsilini davam etdirməklə yanaşı, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında və Azərbaycan SSR Nazirlər Soveti nəzdində Mədəni-Maarif Müəssisələrinin İşləri üzrə Komitədə işləmişdir. İdarənin rəisi, yazıçı Süleyman Rəhimov ona həmişə himayədarlıq etmişdir.

Ulduz xanım 1951-ci ildə Dövlət Teatr İnstitutunun Rejissorluq fakültəsini fərqlənmə diplomu ilə bitirərək ilk azərbaycanlı qadın teatr rejissoru kimi fəaliyyətə başlayır. Diplom işi Sezar Solodarın "Ulduzlar aləmi" dramı əsasında tamaşaya verdiyi quruluş olub. İnstitutu bitirəndən sonra altı ay da köhnə işində çalışan gənc rejissor Ulduz Rəfili 1952-ci il yanvarın 1-dən Gənc Tamaşaçılar Teatrının rus bölməsinə quruluşçu rejissor vəzifəsinə götürülür. Bir-birinin ardınca təravətli, yeni nəfəsli tamaşalar hazırlayır. Rus bölməsinin tamaşalarında Azərbaycan tamaşa-



çılarının ruhuna uyğun əsərlərə repertuarda üstünlük vermək üçün cidd-cəhdlə, inamla çalışır. 1973–1975-ci illərdə teatrın baş rejissoru vəzifəsində işləyir.

Ulduz Rəfili 1975-ci il sentyabrın 1-dən pedaqoji fəaliyyətə keçir. Uzun illər Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyasının) Vokal və opera hazırlığı kafedrasının professoru işləyir. Bu illər ərzində S.Raxmaninovun "Aleko", P.Çaykovskinin "İolanta", F.Əmirovun "Sevil", V.A.Motsartın "Fiqaronun toyu" və s. əsərləri uğurla səhnələşdirir.

O, Gənc Tamaşaçılar Teatrında həm Azərbaycan, həm də rus bölmələrində 50-dən artıq tamaşa hazırlayıb, forma və məzmunca müxtəlif əsərlərə fərqli janrlarda quruluşlar verib. Faciə, dram, komediya, məişət məzhəkəsi, ictimai-sosial mahiyyətli pyeslər və nağıl janrlarında tamaşalar hazırlayıb.

Ulduz xanım milli və Avropa klassiklərinin faciə və komediyalarında çağdaş düşüncə zəminində aktual və maraqlı ideyaları tamaşanın ali məqsədinə çevirməyi yüksək peşəkarlıqla bacarırdı. İtalyan dramaturqu K.Qoldoninin "İki ağanın bir nökəri" və V.Hüqonun "Səfillər" əsərlərini Azərbaycanda ilk dəfə tamaşaya hazırlayan Ulduz Rəfili olub.

Rejissor rus bölməsində quruluş verdiyi səhnə əsərlərində Azərbaycan teatr estetikasının incəliklərini, fikir dərinliyini mövzu, əsərin zaman və məkan xronotopu baxımından qoruyub saxlayırdı. Onun rejissurasına incə lirizm və emosional cazibədarlıq xasdır.



Ən yaxşı tamaşaları lirik-psixoloji üslubda hazırlanıb. Həmin səhnə əsərlərində o, zərif duyğuların poetik həllini məharətlə tamaşanın ruhuna aşılayırdı. Bu baxımdan "Mənim nəğməkar bibim", "Keçən ilin son gecəsi" və "Qaraca qız" tamaşaları yüksək bədii səviyyələri, estetik ifadə vasitələrinin zənginliyi ilə daha parlaq sənət nümunələri sayılır.

Uşaq tamaşaları içərisində isə Xanımana Əlibəylinin "Aycan" nağıl-pyesinə verdiyi quruluş poetik hüsnü və ifadə səmimiyyəti ilə seçilirdi. Bu tamaşa uzun illər teatrın repertuarını bəzəyib.

Quruluş verdiyi tamaşaların əksəriyyətini realist, bir qismini isə romantik-realist üslublarda hazırlayıb. Tamaşanın səhnə təfsiri üçün müəyyənləşdirdiyi janr təyini yüksək peşəkarlıqla səhnədə özünün bədii-estetik təcəssümünü tapırdı.

Tamaşaya qoyacağı pyeslərdə mövzunun psixoloji mahiyyətini, ideya gücünü müəyyənləşdirən Ulduz xanım dəqiqliklə aktyor ansamblı seçirdi. Aktyorlarla birgə axtarışlarında incə və zərif yaradıcılıq duyğusu olurdu. Bitkin, tamaşanın ali məqsədini, fikir yükünü tamlıqla çəkə bilən aktyor ansamblı yaratmaqda yüksək səriştə sahibi idi. Canlı və dinamik kompozisiya qururdu və bütün formalarda aktyor oyunu öndə olurdu.

Onun yaradıcılıq fəaliyyəti yüksək qiymətləndirilmişdir. 1957-ci ildə S.Mixalkovun "Somberto" əsərinə görə SSRİ Mədəniyyət Nazirliyinin və 1959-cu ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanlarına, medallara, Gənc Tamaşaçılar Teatrının inkişafındakı xidmətlərinə və rejissorluq sənətində qazandığı nailiyyətlərə görə isə 1964-cü il iyunun 29-da respublikanın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür. O, eyni zamanda ictimai fəaliyyətlə də məşğul olmuş, üç dəfə rayon sovetinin deputatı seçilmişdir.

Ulduz xanımın insan kimi çox həssas qəlbi vardı. Truppanın kasıb və imkansız sənətkarlarının, xüsusən istedadlı gənclərin hamisi kimi kollektivdə böyük hörmət və rəğbət qazanmışdı. Onlarca gəncə dəfələrlə geyim-kecim hədiyyə etmişdi.

Gənc Tamaşaçılar Teatrında peşəkar rejissuranın çağdaş estetik tələblərə uyğun təkamüldən keçib formalaşmasında dəyərli xidmətləri olan sənətkar 2006-cı il yanvarın 8-də Bakıda vəfat etmişdir.

**İlham Rəhimli**
**professor**

## "Qırmızı kitab"ın III nəşri üzərində iş yekunlaşır

Azərbaycan Respublikasının "Qırmızı kitab"ının nəşrləri Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən AMEA ilə əlaqəli təşkil edilir. "Qırmızı kitab"ın III nəşri üzrə işə 2019-cu ildə başlanılıb. Artıq işlər yekunlaşmaq üzrədir və nəşr bu il işıq üzü görəcək.

Bu barədə məlumat verən AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova qeyd edib ki, pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, qarşıya qoyulmuş vəzifələrin icrası üçün aidiyyəti institutlar və alimlər tərəfindən yerinə yetirilib.

Akademik diqqətə çatdırıb ki, Azərbaycan Respublikasının "Qırmızı kitab"ının I nəşrinə nadir və nəsli kəsilmək təhlükəsi altında olan 140 ali bitki növü daxil edilmişdi. II nəşr ümumilikdə 330 bitki növünü əhatə etmişdi. III nəşrinə daxil edilmək üçün ümumilikdə 450-dən çox növ qiymətləndirilib. Bunlardan 400-dən çoxu ali, 6-sı ali sporlu, 7-si ibtidai bitkilərə (2-si şibyə, 5-i yosun), 37-si göbələk növlərinə aiddir.

"Qırmızı kitab"ın I nəşrində 108 növ heyvan adı yer alıb. II nəşrə isə nadir, nəsli kəsilmək təhlükəsində olmaqla, qorunmasına ehtiyac yaranan 223 növ heyvan daxil edilib. Ötən dövr ərzində bu növlərin bir çoxunun təsnifatında dəyişikliklər edilib. Bu fakt, eləcə də son illərdə aparılan molekulyar-genetik tədqiqatlar nəticəsində bəzi növlərin iki və daha çox müstəqil növə ayrılması III nəşrdə nəzərə alınacaq.

"Qırmızı kitab"ın II nəşrinə quşların 72 növü daxil edilmişdi. II nəşrə düşmüş məməli heyvanlardan 5 növün qırmızı siyahıdan çıxarılması və 2 yeni növün daxil edilməsi planlaşdırılır. Ümumilikdə, III nəşrə 242 fauna növünün salınması qərara alınıb. Bunlardan su onurğasızlarının 7, həşəratların 82, balıqların 12, suda-quruda yaşayanların 6, sürünənlərin 18, quşların 78, məməlilərin 39 növü üzrə qiymətləndirmələr aparılıb, oçerklər yayılma xəritələri və növün xarakterik şəkilləri ilə birgə tam hazırlanıb, növlərin kitabdakı sıralanması müəyyənləşdirilib.

# Milli Ensiklopediyanın nəşrində gecikmə nə ilə bağlıdır?

## Hələ "İ" hərfində qalmışıq...

Müstəqil Azərbaycanın yeni universal ensiklopediyasının yaradılması üzərində iş 19 il əvvəl başlayıb. Prezident İlham Əliyev 2004-cü il 12 yanvar tarixində "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" sərəncam imzalayıb. Sərəncamda Azərbaycan xalqının həyatında baş vermiş mühüm ictimai-siyasi, tarixi, elmi və mədəni hadisələri obyektiv şəkildə əks etdirən yeni ensiklopediyanın hazırlanıb nəşr edilməsi zərurəti qeyd olunurdu.

Ötən müddətdə Azərbaycan Milli Ensiklopediyasının (AME) hazırlanması və nəşri ilə bağlı hansı işlər görülüb?

Bu barədə qəzetimizə AMEA "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru, akademik Tofiq Nağıyev məlumat verdi.

AME-nin ümumilikdə 20 cilddə (A-dan Z-yə) nəşr olunacağını söyləyən direktor qeyd etdi ki, məqalələrin sayına görə cildlərin sayı da artırıla bilər: "Prezident İlham Əliyevin məlum sərəncamından sonra AME-nin "Azərbaycan" xüsusi cildi 2007-ci ildə Azərbaycan dilində, 2012-ci ildə isə rus dilində çap olunub. Ensiklopediyanın 2009-2020-ci illərdə 10 cildi işıq üzü görüb. 10-cu cild "İ" hərfi ilə tamamlanıb.

AME-nin hər il bir cildinin nəşr olunmasının nəzərdə tutulduğunu bildirən Tofiq Nağıyev vurğuladı ki, COVİD-19 pandemiyası səbəbindən 11-ci cildin nəşrində iki il gecikmə yaranıb: "Bu ilin sonuna qədər 11-ci cild nəşr olunacaq, 12-ci cild üzərində isə iş gedir. Ensiklopediyanın nəzərdə tutulan digər cildləri də qarşıdakı illərdə yüksək keyfiyyətdə hazırlanaraq oxucuların ixtiyarına veriləcək".

Xatırladaq ki, ensiklopediyanın cildlərinin nəşrə hazırlanması və çapa təqdim edilməsi AMEA-nın tərkibində fəaliyyət göstərən xüsusiləşdirilmiş elmi təşkilat – "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzində həyata keçirilir. Mərkəz Azərbaycan Respublikası Prezidentinin 5 may 2004-cü il tarixli sərəncamı ilə yaradılıb.




Mərkəzdə ensiklopediyanın cildlərinin hazırlanması AME Redaksiya Heyəti tərəfindən təsdiq olunmuş müəlliflər və elmi redaktorlar üçün nəzərdə tutulmuş "Metodik göstərişlər"ə riayət edilməsi ilə aparılır.

Ensiklopediyanın cildləri üzərində işlərə başlanmazdan əvvəl gələcəkdə bu topluya daxil olacaq bütün məqalələrin ilkin siyahısını təşkil edən sözlük tərtib olunub və sahələr üzrə səkkiz kitabdan ibarət "Sözlük" toplusu çap edilib. "Sözlük"dəki siyahıya uyğun olaraq, təbiət və humanitar elmlər üzrə redaksiyalarda məqalələr yazılır. Məqalələrdə təbiət hadisələri, biomüxtəliflik, coğrafi ərazilər, dünya ölkələri, iri vilayətlər və şəhərlər, millətlər, elm və texnikanın nailiyyətləri, məşhur sənət əsərləri, mühüm siyasi və ictimai proseslər, tarixi faktlar, görkəmli tarixi şəxsiyyətlər, ictimai-siyasi xadimlər, filosoflar, yazıçılar, şairlər, maarifçilər, xeyriyyəçilər, mədəniyyət və incəsənət xadimləri barədə yığcam məlumatlar öz əksini tapır. Bu zaman Azərbaycanın təbiətinə, tarixinə, coğrafi bölgələrinə və yaşayış məntəqələrinə, respublikamızdan kənarda olan Azərbaycan tarixi-etnik torpaqlarının toponimlərinə, ictimai həyatın siyasət, hərb, elm, idarəçilik, mədəniyyət, idman və s. sahələrində mühüm işlər görmüş və ya böyük nailiyyətlər əldə etmiş, Azərbaycan dövlətində aparıcı vəzifələrdə çalışmış insanlar barədə məlumatlara xüsusi diqqət verilir. Görkəmli dövlət xadimlərinin, AMEA-nın həqiqi və müxbir üzvü, Xalq yazıçısı, Xalq şairi, Xalq rəssamı, Xalq artisti kimi fəxri adlara layiq görülmüş şəxslərin, generalların və admiralların, elmlər doktorlarının hər birinə məqalə həsr olunur. Öz tarixi vətənindən kənarda yaşayaraq böyük nailiyyətlər əldə etmiş azərbaycanlıların, başqa millətlərdən olan, lakin Azərbaycan xalqının və dövlətçiliyinin mənafeyi üçün əhəmiyyətli işlər görmüş şəxslərin də hər biri haqqında məqalə tərtib edilir.

Ensiklopediyanın hər bir cildi (təqribən 600 səhifə) iki variantda nəşr edilir. Xüsusilə nəfis şəkildə tərtib olunmuş satış variantı Almaniyada, nisbətən sadə, lakin yüksəkkeyfiyyətli kitabxana variantı isə Bakıda "Şərq-Qərb" nəşriyyatında çap olunur.

Azərbaycan Milli Ensiklopediyasının saytı da (ensiklopediya.gov.az) fəaliyyət göstərir.

**Nurəddin**

# Cənublu soydaşlarımıza mübarizə ruhu aşılayan şair

Otaylı-butaylı ədəbiyyatımızın məğrur, mübariz şairi Həbib Sahir. Saf duyğulu, munis diləkli söz adamı. Bənzərsiz yaradıcılığı ilə hər kəsə sirdaş, dost olan, onu cazibəsində saxlayan sənətkar. Bu il tanınmış şair, ədəbiyyatşünas və pedaqoqun anadan olmasının 120 illiyidir.



Həbib Sahir 1903-cü ildə Cənubi Azərbaycanın Tərk şəhərində dünyaya göz açır. Bir müddət sonra ailəsi Təbrizə köçür. İşlərin, dolanışığın rəvan getdiyi bir vaxtda atası qəflətən vəfat edir. Şəhərdə Azərbaycan dilində təhsil verən məktəb olmadığı üçün Həbib ilk təhsilini "Məhəmmədiyyə" mədrəsəsində fars dilində alır. Filologiya üzrə fəlsəfə doktoru Pərvanə Məmmədli araşdırmasında göstərir ki, Həbib burada Fransada oxumuş, fransız dili və ədəbiyyat müəllimi, şair Tağı Rüfətlə qarşılaşır. O, Həbibdə Qərb ədəbiyyatına dərin maraq oyadır. Xüsusilə də Türkiyədə nəşr olunan "Sərvəti-fünun", "Rəsmili ay" kimi ədəbi-ictimai toplularla tanış edir. Orada dərc olunan şeirlər, xüsusilə Tofiq Fikrət və Cəlal Sahirin əsərlərini çox bəyənir. C.Sahirin əsərləri gənc şairin ədəbi-bədii zövqünə, dünyagörüşünə çox böyük təsir göstərir. Elə buna görə də Həbib sonra onun soyadını özünə təxəllüs ("sahir" ərəb sözüdür, mənası "yatmayan" deməkdir – red.) götürür. Mədrəsə təhsilini başa vurduqdan sonra bir müddət şəhərdə imkanlı ailələrin uşaqlarına dərs deyir.

1927-ci ildə Türkiyəyə gedən Həbib Sahir əvvəlcə İstanbulda yaşayan iranlılar üçün açılmış məktəbdə müəllim işləyir. 1929-cu ildə İstanbul Universitetinin Tarix və coğrafiya fakültəsinə qəbul olunur. Burada fransız dilini də öyrənir. Türk və fransız ədəbiyyatına dərindən bələd olur.

Təhsilini başa vurduqdan sonra Təbriz şəhərinə qayıdır. Fransız şair Alfons Lamartinin məşhur "Göl" poemasını Azərbaycan dilinə tərcümə edir. Azərbaycan dilində şeirlər qələmə alır. Güney Azərbaycanda Seyid Cəfər Pişəvərinin başçılığı ilə 1945-ci ildə qurulan Milli hökumət ("21 Azər" hərəkatı) onun ana dilində yazıb-yaratmasına böyük təkan verir. Milli hökumətin qısa vaxt ərzində ciddi islahatlar aparması, quruculuq işləri həyata keçirməsi şairin təbini coşdurur. Fars dilində yazan azərbaycanlı şair və yazıçılara qarşı mübarizəyə qalxır. Onları kəskin tənqid edir:

*Yada qul ol,*
*Dərdə alış,*
*Farsca danış...*
*Əsirliyi, dərvişliyi*
*Təlqin elə uşaqlara...*

Milli hökumət süqut etdikdən (1946) sonra Həbib Sahir müəllim işlədiyi məktəbdən qovulur, həbs edilərək sürgünə göndərilir.

Ümumiyyətlə, şairin ədəbi yaradıcılığında təbiət gözəlliyi, varlığın sirri, doğma yurdunun dərdləri rəvan dillə ifadə olunur. O, Güney Azərbaycanın dərdini öz dərdi bilir. Yaradıcılığında görünməmiş bir işıq parlamağa başlayır. Mövcud rejimlə mübarizəyə qalxır. Ölkədəki durğunluğa, xurafat, ehkamçılıq və dərvişçiliyə qarşı sərt çıxışlar edir. Şeirlərində cənublu soydaşlarımızı azad, sərbəst və çağdaş bir millət olmağa çağırır. Milli hökumət devriləndən sonra şah rejiminə qulluq edən Azərbaycan türkləri ilə barışmır. Onlara qarşı sərt çıxışları ilə diqqət çəkir. "Mən əsir ellərimin şairiyəm" şeirində Güney Azərbaycan ziyalısının faciəsini ürəkağrısı ilə dilə gətirir:

*Yanar əflakda minlərlə çıraq*
*Bizə bir şam, bir avizə də yox.*
*Qovalarkən məni hər gün möhlət,*
*Qapımı döymədədi hər gecə qəm.*
*Hər azadə elin şairi var*
*Mən əsir ellərimin şairiyəm...*

Müəllif "Səhər işıqlanır" şeirində yazır ki, o qanlı və yaslı payızdan (Milli hökumətin süqutundan ötən dövrü nəzərdə tutur) artıq 32 payız keçib. Amma hələ yaralar sağalmayıb... Bununla belə, istisiz, soyuq kül altında közlər qaldı... Uzun illərdən, o qanlı faciədən sonra, deyəsən, səhər işıqlanır.

*Ana dili şirin olar,*
*Bizim türkü şirin dildir,*
*Xoş sədalı, zəngin dildir.*
*Dil günəşdir, işıq saçar,*
*Azadlığa qapı açar...*

Şairin Təbrizin cənubundakı Səhənd dağına həsr etdiyi şeir böyük Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasını xatırladır. Müəllif bu dağla dərdləşir, sanki onun "dilini açır":

*Baxır Səhənd, keçənilki dostları,*
*Gülərüzlə, uzaqlardan səsləyir...*
*O bir dağdır, lakin onun ürəyi,*
*İnsanlara dərin sevgi bəsləyir...*

İranda İslam inqilabından (1979) sonra da şairə qarşı təhdidlərin arası kəsilmir. Ancaq o, məhrumiyyətlərə baxmayaraq, bütün şüurlu həyatını istibdadın tənqidinə, Azərbaycan türklərinin haqlarının qorunmasına həsr edir. Azadlıq nəğməkarı 1988-ci ildə dünyasını dəyişir.

**Savalan Fərəcov**

# “Sənətini göstərə bilənə diqqət etmək lazımdır”

## Cahangir Novruzov: “Məhz teatrı sevən, ona lazım olan insanları saxlamaq və çalışdırmaq gərəkdir”

Həmsöhbətim Xalq artisti, tanınmış aktyor, rejissor, Adana Çukurova Universiteti Dövlət Konservatoriyasının professoru Cahangir Novruzovdur. Sənətkarla ötən il noyabrın sonlarında, “4.4” Qısa Tamaşalar Festivalının dəvətlisi kimi Bakıda olarkən görüşmüşdük. Söhbətin üstündən bir xeyli keçsə də, mövzusu köhnəlməyib...



*– Cahangir müəllim, söhbətimizə elə “Azərbaycan teatrı bu gün” mövzusundan başlayaq.*

– Danışaq. Bəzən bizdə, burada teatrımızın vəziyyətini pisləyib bədbin sözlər danışırlar. Mən razı deyiləm. Hər şeyi yaşanan kataklizmlərlə ölçmək lazımdır. Vəziyyət təkcə burada belə deyil. Pandemiyanın sənətə, təhsilə, mədəniyyətə, iqtisadiyyata vurduğu zərbələri nəzərə alsaq, bunu heç də kiçik olmayan müharibə və onun nəticələri ilə müqayisə edə bilərik. Azərbaycan müstəqilliyini bərpa etdiyi vaxt ölkəmizdəki, demək olar ki, bütün teatrların binası təmirdə idi. O zaman mən indiki Akademik Musiqili Teatrın bədii rəhbəri idim. Ümumən teatrlarımızın binaları bərbad idi. Təmirlər uzun çəkirdi. Nəticədə nə oldu? Teatr ilə tamaşaçı arasındakı əlaqə qırıldı. Bunun nəticəsini sonra teatrımız, mədəniyyətimiz ağır ödədi...

*– Amma yenə də müstəqillik dövrü teatr həyatımız ağır olsa da, qaynar idi. Hətta bir neçə müstəqil teatr da yaranmışdı.*

– Yarandı, yaşayanı da oldu, ömrü qısa olanı da. O proseslər baş verməsəydi, indiki mənzərə də olmazdı.

*– Musiqili Teatrda baş rejissor da işlədiniz...*

– Mən baş rejissor olduğum zamanlar bu teatrın tarixində olmayan şeylər baş verdi. Teatrın ən gözəl çağlarında – Şəmsi Bədəlbəylinin, Süleyman Ələsgərovun çalışdığı illərdə belə burada iki-üç tamaşa hazırlanırdı. Mən bura gəldikdən sonra bir il üç ayın içərisində dörd tamaşa hazırladım, beşini də əsaslı bərpa etdim. Təsəvvür edin ki, bunlar bir baş və iki köməkçi rejissorla görülən işlər idi. Özü də məşqlərimiz otaq boyda yerdə, zirzəmi və dəhlizdə olub. Demək olar ki, günlərim burada keçirdi. Sonra o zamankı rəhbərliklə işləyə bilməyəcəyimi anladım və öz ərizəmlə getdim. Nazirlik məni buraxmamaq üçün başqa bir teatrın rus bölməsinə baş rejissor təyin etdi. Sonrasını da ki bilirsiniz.

*– Bu gün bəzən “teatr var, truppa yoxdur”, yaxud da bunun əksi ilə bağlı fikirlər səsləndirilir.*

– Teatrın öz qanunları var. Öncə truppa yaranır. Məsələn, bir neçə yaradıcı insan toplanır, bir tamaşa, yaxud hər hansı performans təqdim edir. Tamaşaçı tərəfindən qəbul edilir, sevilir. Burada qəliz heç nə yoxdur. Eksponat olmayandan sonra dəbdəbəli muzey binası kimə lazımdır?

*– Bu gün teatrımızda nə çatışmır?*

– Çox şey. Tamaşalara, teatrların başqa vəziyyətinə görə deyirəm. Elə bilməyin ki, məlumatsızam. Paytaxtdan bölgəyə əksər teatrların işlərini izləmişəm, proseslə tanışam. Təzə binalar, texniki avadanlıqlar hamısı var. Amma əsas olan yaradıcı heyət qənaətbəxş deyil. Götürək elə vaxtilə çalışdığım Akademik Musiqili Teatrı. Bu gün dünya səviyyəli təmirli, dəbdəbəli, hər cür şəraiti olan binada kadr qıtlığı yaşanır. Sopranolar, tenorlar, altlar, baritonlar yoxdur. Varsa da, yaxşısı deyil. Çünki yaxşıları Akademik Opera və Balet Teatrına gedir. Tutarlı, maraqlı layihələr etmək olar. Məhz teatrı sevən, ona lazım olan insanları saxlamaq və “işləməyən dişləməz” prinsipi ilə çalışdırmaq lazımdır. Teatr vaxt öldürmək yeri olmamalıdır. Sərf olunan əməyə, potensiala, yaradıcılığa, görülən işin nəticəsinə görə maddi təminat verilməlidir. Məhz sənətini göstərənə, peşəsindən qazanıb qazandırana diqqət etmək lazımdır.



*– Bəlkə başqa təcrübələrdən də öyrənək?*

– Mən burda yoxam axı (gülür). Öyrənmək istəyənlər öyrənsinlər. Azərbaycanda və Rusiyada təhsil almışam, ustadlardan öyrənmişəm. Bunları niyə deyirəm? Öyrənməkdən yorulmamışam, bezməmişəm. Rusiyaya təhsil almağa gedəndə Şəki teatrının baş rejissoru idim. Rusiyanın teatrlarında tamaşaların tərtibat işinə baxıram həsəd aparıram, qısqanıram. Deyirəm niyə bizdə də olmasın. Başladım o məsələləri də öyrənməyə. Yadımdadır, fasilələrlə düz dörd il bir rus bədii quruluş hissə müdirinin yanına Moskvaya getdim... Bu gün rahatlıqla deyə bilərəm ki, teatr necə işləyir.

*– Siz deyənlərdən reallığa qayıtsaq, problemlər içində itib-batmaq olar.*

– Sadə bir məsələni deyim: festival müddətində baxdığım bəzi tamaşalarda özümə sual verirdim ki, görəsən, bu qarşımda gördüyüm insan necə aktyor olub gəlib teatra düşüb.

*– Cahangir müəllim, bizdə xüsusən bölgə teatrlarında peşəkar aktyor problemi var...*

– Bilirəm. Amma qoy, az olsun, amma öz olsun, daha yaxşısı olsun prinsipinin tərəfdarıyam.

*– Belə çıxır ki, siz bu qədər teatr olmasının tərəfdarı deyilsiniz?*

– Yox, qətiyyən, əksinə. Azərbaycan mədəniyyətini öldürmək, onu böyrü üstə qoymaq üçün Stalin rejimi bir gecədə 24 teatrı bağlamışdı. Onların sırasında Şəki teatrı, Tiflis və İrəvandakı Azərbaycan teatrları da var idi. Teatr tariximizə adı qızıl hərflərlə yazılan aktyor, rejissor nəsli həm də o teatrlardan gələnlər idi. Eləcə də bölgələrdən gələnlər. Ona görə də bölgə teatrlarına elə yanaşmaq olmaz.

*– Bu gün kadrlar bölgəyə getmək istəmirlər. Diplomunu əlinə alan hesab edir ki, akademik teatrda çalışmalıdır.*

– Çox nahaq. Mən Musiqili Komediya Teatrında işləyə-işləyə Şəki Dövlət Dram Teatrına təyinatımı istəmişəm və getmişəm. Bilmək istəyirəm, məgər Şəki, Gəncə, Lənkəran, Mingəçevir Azərbaycan şəhərləri deyilmi? Mən Şəkidə 10 il işlədim. Xəncərimin qaşı düşdü?! İndi oturub teatrın o dövrünü analiz etmək istəmirəm. Bu gün fədailər çatışmır. İşləmək, əziyyət çəkmək istəyənlər azdır.

*– Dövr başqadır, münasibətlər fərqlidir...*

– Yaxşı, soruş gör, mən niyə buradakı hazır işimi, rahatlığımı qoyub Şəkiyə getdim?

*– İnsanların inqilabçı düşüncələri olur axı. Xüsusən gənclikdə dünyanı çiyinlərdə apara bilmək kimi əzmi də əlavə etsək...*

– İnqilabı qoy o yana. Kitab cümlələri ilə başımı qatma (gülür). Çünki mənim universitetdə bir kursum var idi və biz yalnız sənət üçün işləyirdik. Getmək onda da asan deyildi. Mən gedəndə bu teatrın guruldayan vaxtıydı. Amma özümə bir yol cızmalı, seçilməliydim. Nə etdim? Şəki teatrında tapdım yolumu. Ora laboratoriya idi. Ancaq o teatrdakı fenomenallıq buradan yox, yalnız Moskvadan göründü. Bu, məni ömrü boyu ağrıdıb düşündürəcək. Sadəcə, o gərgin xatirələrə qayıtmaq istəmirəm. Düşünürəm ki, bölgə teatrlarını laboratoriya vəziyyətində işlətmək, yaxşı potensiallı truppalar formalaşdırmaq olar.

*– Müzakirələrin mərkəzində daha çox rejissor həmkarlarınız da durur. Məsələn, aktyor potensialı var, amma rejissor yoxdur...*

– Birmənalı demək olmaz. Düzdür, potensialından istifadə olunmadan dünyadan köçən aktyor nəsli oldu. Məsələn, Nəsibə Zeynalovanı yalnız qayınana kimi komik obrazlarda oynadıb, dramatik potensialından istifadə etmədilər. Əslində, o, güclü dramatik aktrisa idi. Sadəcə, Azərbaycan rejissorlarının intellektual səviyyəsi onu ayrı ampluada istifadə etməyə çatmadı. Bu gün də həmin vəziyyətdir. Biz hələ də özümüzü aynada əyri görürük, amma susuruq. Üzdə alqışlayıb, arxada danışmaqdansa, dur onun cəhdini alqışla və yanlışlarının aradan qalxmasına kömək et...

*– Bizim teatrımızda siz deyən cəsarət çatışmır?*

– Yox, həm də insanımızda səmimiyyət çatışmır, məncə. Teatr isə cəsarəti sevir. Yalan vicdanı şikəst edir. Sən yalan danışıb məni aldada bilərsən, amma içində mütləq xal qalacaq.

*– Teatr və onun problemlərindən danışanda daim rejissor-dramaturq-aktyor üçbucağı ağıla gəlir.*

– Sözsüz. Problemlər, bu üçlüyün vəziyyəti heç vaxt stabil olmaz, zaman-zaman dəyişər. Bizlər bu şərtlərin məhsuluyuq.

*– Aktyor, rejissor, pedaqoq kimi tanınan Cahangir Zeynalov bu gün yalnız pedaqogika ilə kifayətlənir...*

– Mən teatr rejissoru, aktyoru olaraq elə bilirəm ki, öz yaradıcılığımda uğurlu və bir az da sevilən olmuşam. Amma bu gün yalnız pedaqoqam. Türk qardaşlarımızın sənət təhsilinə bacardığım qədər kömək etməyə çalışıram. Müəllimlərimdən öyrəndiklərimi əlavə bilgilərimə qataraq yeni nəslə öyrətməyə çalışıram və bundan çox məmnunam.

*– Yeni nəsillə bağlı müqayisəniz maraqlı olardı.*

– Orada da oxumaqdan qaçmaq problemi var. Odur ki, dərsim bəzən 8 saat çəkir. Anladıram, danışırıq, müzakirə edirik. Tələbələrimi daha çox yükləyirəm. Kurs bitənə qədər onlarla kitab oxuyurlar, araşdırırlar.

**Söhbətləşdi: Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 10-12 yanvar

### Azərbaycan

**10 yanvar 1929** – Tanınmış dilçi alim, AMEA-nın müxbir üzvü Afad Məhəmməd oğlu Qurbanov (1929 – 26.9.2009) Qərbi Azərbaycanın (Ermənistan SSR) Kalinino rayonunun Qızıl Şəfəq kəndində doğulub. “Müasir Azərbaycan ədəbi dili”, “Azərbaycan onomastikası” və s. kitabların müəllifidir.

**10 yanvar 1932** – Musiqişünas, professor Elmira Əbdülhəmid qızı Abasova (1932 – 12.2.2009) anadan olub. Üzeyir Hacıbəylinin yaradıcılığı, Cövdət Hacıyev, Rəşid Behbudov və başqa sənətkarlar haqqında kitabların müəllifidir. Konservatoriyanın (indiki Bakı Musiqi Akademiyası) rektoru (1977-1991) olub.

**10 yanvar 1937** – Əməkdar artist Nisə Heydər qızı Rzayeva (1937-2017) Naxçıvanda anadan olub. Mingəçevir Dövlət Dram Teatrında çalışıb.

**10 yanvar 1938** – Bəstəkar, Xalq artisti Elza İmaməddin qızı İbrahimova (1938 – 11.2.2012) Hacıqabulda anadan olub. “Yanan laylalar” operasının (libretto – Ramiz Heydər), populyar mahnıların (“Gecələr bulaq başı”, “Sən yadıma düşəndə” və s.), romansların müəllifidir.

**10 yanvar 1942** – Əməkdar incəsənət xadimi Baba Fazil oğlu Rzayev (1942 – 2.12. 2014) Lerik rayonunun Çayrud kəndində doğulub. Lənkəran Dövlət Dram Teatrında rejissor, baş rejissor işləyib.

**10 yanvar 1953** – Əməkdar artist Sevil Rza qızı Xəlilova (1953 – 28.11.2011) Bakıda doğulub. Akademik Milli Dram Teatrında çalışıb, televiziya tamaşalarında (“Kişilər”, “Yollar görüşəndə”) maraqlı rollar oynayıb.

**10 yanvar 1962** – Xalq artisti Əjdər Əliabbas oğlu Sultanov (8.12.1909 – 1962) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**11 yanvar 1906** – Tarixçi, şərqşünas Əbdülkərim Əli oğlu Əlizadə (1906-1979) anadan olub.

**11 yanvar 1998** – Xalq artisti, tarzən Əliağa Eyvaz oğlu Quliyev (9.5.1917 – 1998) vəfat edib.

**11 yanvar 1999** – Əməkdar mədəniyyət işçisi Ramazan Həmzət oğlu Xəlilov (1901-1999) vəfat edib. Üzeyir Hacıbəylinin şəxsi katibi, bəstəkarın vəfatından sonra onun irsinin təbliğatçısı olub. 1975-ci ildən ömrünün sonunadək Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru işləyib.

**11 yanvar 2019** – Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi İli” elan edilməsi haqqında sərəncam imzalayıb.

**12 yanvar 1908** (yeni təqvimlə 25 yanvar) – Üzeyir Hacıbəylinin Məhəmməd Füzulinin poeması əsasında yazdığı “Leyli və Məcnun” operası Bakıda tamaşaya qoyulub. Bu, müsəlman Şərqində ilk opera idi. Operanın ilk tamaşasına Hüseyn Ərəblinski quruluş vermişdi. Üzeyir bəyin seminariya yoldaşlarından ibarət orkestrə Əbdürrəhim bəy Haqverdiyev dirijorluq etmişdi. Muğam hissələrini tarzənlər Qurban Pirimov və Şirin Axundov müşayiət edirdi. Məcnun rolunu Hüseynqulu Sarabski oynamışdı.

**12 yanvar 1928** – Ədəbiyyatşünas və sənətşünas, professor Gülrux Sabir qızı Əlibəyli (1928 – 15.2.2016) anadan olub. Estetika və bədiilik məsələlərinə dair tədqiqat əsərlərinin, povestlərin müəllifidir.

**12 yanvar 1940** – Xalq artisti, mahir klarnet ifaçısı Vəli Nurbala oğlu Qədimov (1940 – 15.4.2009) Bakıda anadan olub.

**12 yanvar 1994** – Populyar müğənni Hüseynağa Məmməd oğlu Hadıyev (19.11.1946 – 1994) vəfat edib. “Dan ulduzu” ansamblının solisti olub.

**12 yanvar 2017** – Prezident İlham Əliyev “Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında” sərəncam imzalayıb.

**12 yanvar 2017** – Əməkdar artist, kontrabas ifaçısı İlyas Hüseyn oğlu Hüseynov (22.9.1924 – 2017) vəfat edib. Bakı Musiqi Akademiyasının professoru olub.

**12 yanvar 2021** – Əməkdar artist İsmayıl Ələkbərov (14.9.1939 – 2021) vəfat edib. Akademik Opera və Balet Teatrının solisti olub.

### Dünya

**10 yanvar 1827** – İngilis tarixçisi, müqayisəli mifologiya üzrə görkəmli mütəxəssis Corc Vilyam Koks (George William Cox; 1827-1902) anadan olub.

**10 yanvar 1883** – Rus yazıçısı, publisist Aleksey Nikolayeviç Tolstoy (1883-1945) anadan olub. “Əzablı yollarla”, “Mühacirlər” romanlarının, “Buratinonun macəraları” nağılının müəllifidir.

**10 yanvar 1905** – Özbək yazıçısı Aybək (Musa Daşməhəmmədov; 1905-1968) anadan olub. Əsərləri: “Nəvai”, “Günəş sönməyəcək” romanları və s.

**11 yanvar 1875** – Rus bəstəkarı, pedaqoq Reynqold Moriseviç Qliyer (1875-1956) Kiyevdə doğulub. Bir müddət Bakıda çalışıb, “Şahsənəm” operasını yazıb. “Türk musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə” Azərbaycan SSR-in Xalq artisti (1934) adına layiq görülüb.

**12 yanvar 1628** – Fransız nağıl yazıçısı Şarl Perro (Charles Perrault; 1628-1703) anadan olub. Əsərləri: “Çəkməli pişik”, “Zoluşka” və s.

**12 yanvar 1876** – Amerika yazıçısı Cek London (Jack London – John Griffith Chaney; 1876 – 22.11.1916) San-Fransiskoda doğulub. “Martin İden”, “Dəmir daban”, “Dəniz canavarı” və s. romanların müəllifidir.

**Hazırladı: V.Orxan**

# Tarın dostu



Tar haqqında bəhs edərkən şairlərimizdən biri belə deyib:

*Könlüm tara bənzəyir,*
*Üstünü simlər bəzəyir:*
*Bir sim ağ, bir sim sarı –*
*Biri könlüm simsarı…*

Həqiqətən də, tar Azərbaycan xalqının könül simsarıdır, könül dostudur. Azərbaycan xalqı bəzən heç kimə açmadığı könül sirlərini, könül duyğularını tara açır, tar vasitəsilə dilləndirir. Məsələ burasındadır ki, tar da hər kəsə könül vermir, mizrabını hər yoldan ötənə tapşırmır. Könül verdiyi adamlar isə sənətsevərlərin ürəklərini riqqətə gətirə bilir. Belə ifaçılardan biri də Ramin Rzayevdir. Ramin tar ifaçılığının orta yaş nəslinə mənsubdur. Amma onu dinləyəndə ifasının sanki qocaman, ustad bir sənətkarın barmaqlarından süzüldüyünü güman edirsən…

Ramin Rzayev Azərbaycanın tar ifaçıları sırasında öz dəstxətti, yeri olan sənətkardır. Lakin o, bu səviyyəyə birdən-birə nail olmamış, hələ uşaq yaşlarından saatlarla tarı bağrına basmağı bacarmış, Asəf Zeynallı adına Musiqi Kollecində oxuyarkən gözəl muğam bilicisi Elxan Müzəffərov kimi tarzənlərdən dərs almış, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) görkəmli tarzən, Xalq artisti Ağasəlim Abdullayevin sinfində oxumuşdur. Ağasəlim Abdullayev virtuoz sənətkar olmaqla yanaşı, eyni zamanda muğam ifaçılığı zamanı xanəndəni ən gözəl şəkildə müşayiət edən tarzənlərdəndir. Mənə elə gəlir ki, Ramin müəllimindən tar ifaçılığı zamanı əxz etdiyi digər xüsusiyyətlərlə yanaşı, bu cəhəti – xanəndəni müşayiət etmək ustalığını da dərindən mənimsəmiş və öz ifaçılığına tətbiq etməyi bacarmışdır. Bu fikrin sübutu kimi isə onun hələ gənc yaşlarından Səkinə İsmayılova və Simarə İmanova kimi Xalq artistlərini müşayiət etməsini nümunə göstərmək olar. Raminin gözəl ifa və xanəndəni müşayiət edə bilmək ustalığının nəticəsidir ki, bu iki sənətkar onunla bu gün də birgə çalışmaqda davam edirlər.

Ramin Rzayev qocaman, ağsaqqal sənətkarımız, Xalq artisti Arif Babayevi də müşayiət etmiş, hətta onunla xarici səfərlərdə – İtaliyada, Türkiyədə konsertlər vermişdir. Tarzən dünyanın bir çox yerlərində, dəfələrlə Avropa ölkələrində, iki dəfə Hindistanda musiqimizi, muğam sənətimizi uğurla təmsil etmişdir. Bu səfərlərin əksəriyyətində Xalq artisti Səkinə İsmayılovanı müşayiət etmiş, ilk Türkiyə və Hindistan səfərinə də onunla getmişdir.

O, muğamlarımızı gözəl bilir. Bu baxımdan onun ifasında bir sıra muğamların lentə alınması da təbiidir. Ramin Rzayev “Bayatı-Şiraz”, “Mahur-hindi” və müəllimi Elxan Müzəffərovdan öyrəndiyi “Nəva” muğamlarını lentə yazdırıb. Bununla da gələcəkdə muğamsevərlər digər tarzənlərimizlə yanaşı Raminin də ifasını dinləyəcək, XXI əsrin əvvəllərindəki muğam mənzərəsini duymaqla bərabər, ifasından da zövq alacaqlar.

Məlumdur ki, muğam sənəti, tar ifaçılığı təkcə instrumental ifaçılıq sahəsi ilə məhdudlaşmır. Bu sənət elə yarandığı gündən ədəbiyyat, irfan, fəlsəfə ilə birlikdə meydana gəlmiş və bu mənəvi dəyərlərin vəhdəti şəklində meydana çıxmışdır. Və eyni zamanda xoş o ifaçının, muğam sənəti nümayəndəsinin halına ki, o da bu sahələrə vaqif olub, muğamın daxilindəki xüsusiyyətləri duyur. Raminin də cövhərində ədəbiyyata, irfana meyil güclüdür və onun ifaçılıq sənəti məhz bu istiqamətlərdən də su içmişdir. Bu gün Ramin Rzayev əsasən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dərs desə də, tələbələri bütün Azərbaycana səpələnmişdir. Bu isə onun daha böyük bir uğuru, nailiyyətidir. Uğurları davamlı olsun...

**Tərlan Quliyev**
**BMA-nın Humanitar fənlər kafedrasının müdiri**

# Sarıqamış şəhidləri anılıb

I Dünya müharibəsində (1914-1918) Osmanlı Ordusunun Rusiya işğalı altında olan torpaqlarını (şimal-şərqi Anadolu) azad etmək üçün başlatdığı Sarıqamış hərəkatının minlərlə şəhidi yanvarın 6-8-də Qars vilayətinin Sarıqamış bölgəsində mərasimlərlə anılıb.

Anım mərasimlərində əvvəlcə Qarsdakı Kazım Qarabəkir paşa məscidində şəhidlərin ruhuna dualar oxunub. Sonra Sarıqamışın "15 Temmuz" demokratiya meydanında Çanaqqala Sənət Teatrı tərəfindən səhnələşdirilən "Vətən sağ olsun, Sarıqamış!" tamaşası nümayiş olunub.

Qars valisi Türker Öksüz Sarıqamış hərəkatının 108-ci ildönümü münasibətilə təşkil edilən mətbuat konfransında Sarıqamışın fədakarlıq, vətənpərvərlik və əzmkarlığın kədərli bir hekayəsi olduğunu söyləyib.

"Biz hər zaman eyni yoldayıq!", "Türkiyə şəhidləri ilə yürüş edir!" şüarları ilə 10 dərəcə şaxtada təxminən üçkilometrlik dağ yolunda yürüş edən izdiham Yuxarı Sarıqamış şəhidləri məzarlığına gələrək Vətən övladlarının xatirəsini ehtiramla anıblar.



Yürüş iştirakçıları Sarıqamışdakı Soğanlı və Allahu-Əkbər dağlarının arasında yerləşən Qızıl çubuq zirvəsinə qədər hərəkət ediblər.

Mərasimə ailə və sosial xidmətlər naziri Dərya Yanık, gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu, yerli hakimiyyət orqanlarının rəhbərləri, bölgədə yerləşən ordu birləşmələrinin komandanları və digər rəsmi şəxslər qatılıblar.

Qeyd edək ki, Sarıqamış şəhidlərinin anım mərasimlərində iştirak etmək üçün Türkiyə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə gənclərdən ibarət böyük bir qrup Ankaradan "Şərq Ekspresi" sərnişin qatarı ilə Qarsa gəlib. Məqsəd XX əsrin ən ağır insan fəlakətləri sırasında yer alan Sarıqamış faciəsinin acılarını yaddaşlara yazmaq, şəhidlərin ruhuna ehtiram göstərməkdir.

Osmanlı Ordusu I Dünya müharibəsində – 1914-cü il dekabrın 22-dən 1915-ci il yanvarın 6-dək davam edən Sarıqamış əməliyyatı zamanı mürəkkəb hava şərtləri (mənfi 20 dərəcə şaxta) və yetərli qış geyimi olmaması səbəbindən 40 minə yaxın hərbçisini itirib. Bu ağır fəlakət Osmanlı dövlətinin süqutuna əhəmiyyətli təsir göstərib.

***

Sarıqamış şəhidlərini andığımız bir gündə Nargin adasında məcburi həyat yaşayan əsgərlərimizə göstərdikləri köməyə görə qardaş Azərbaycan xalqına minnətdarlığımızı bildiririk.

Bu fikirlər isə Türkiyənin milli müdafiə naziri Hulusi Akarın Sarıqamış faciəsinin 108-ci ildönümü ilə əlaqədar yaydığı açıqlamada yer alıb.

Xatırladaq ki, I Dünya müharibəsi zamanı Osmanlı Ordusunun şərq cəbhəsində Rusiya tərəfindən əsir götürülmüş əsgərlərinin bir qismi Bakı yaxınlığında, Nargin adasında saxlanılıb. Yerli əhali o dövrün şərtləri çərçivəsində buradakı türk əsgərlərinə mümkün yardım göstərib.

**Mehparə Sultanova**
**Ankara**

# Azərbaycanlı vokalçı Moskvada beynəlxalq müsabiqədə iştirak edəcək

Yanvarın 12-dən 22-dək Moskvada vokalçıların və konsertmeysterlərin Xibla Gerzmava adına Beynəlxalq müsabiqəsi keçiriləcək. Abxaz əsilli məşhur vokalçı, opera və operettalarda soprano partiyalarının ən gözəl ifaçılarından biri, Rusiyanın Xalq artisti Xibla Gerzmavanın təşəbbüsü ilə keçirilən müsabiqəyə Rusiya Prezidenti yanında Mədəni Təşəbbüslər Fondu dəstək verir.



42 vokalçı və 16 konsertmeysterin yarışacağı müsabiqənin seçim mərhələsində ekspert şurası 38 ölkədən daxil olmuş 800 ərizəni araşdırıb.

Seçilmiş 42 vokalçı iştirakçı arasında hazırda Sankt-Peterburq Mariinski Teatrının dəvətli solisti olan soydaşımız Həmid Abdulov da var. 28 yaşlı vokalçı Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin, Sankt-Peterburq Konservatoriyasının, Yelena Obraztsovanın Beynəlxalq Musiqi Akademiyasının məzunudur.

Yeri gəlmişkən, müsabiqənin ekspert şurasının bir üzvü soydaşımız – Stanislavski və Nemiroviç-Dançenko adına Moskva Dövlət Akademik Musiqili Teatrın dirijoru Arif Dadaşovdur.

**Gülcahan**

# Məşhur pianoçu Riçard Klayderman ilk dəfə Bakıda konsert verəcək



Dünya şöhrətli pianoçu və aranjimançı Riçard Klayderman ilk dəfə Bakıda konsert verəcək. Fransalı musiqiçi (əsl adı Filip Pajes) martın 7-də orkestrin müşayiəti ilə Bakı Konqres Mərkəzində səhnəyə çıxacaq.

1953-cü ildə anadan olan Riçard Klayderman 12 yaşında konservatoriya təhsili almağa başlayıb, 23 yaşından peşəkar pianoçu kimi səsyazma studiyalarında çalışıb. İndiyədək onun ifasında 1200-dən çox musiqi əsəri yazılıb. İfaçının ümumi tirajı 90 milyonu keçən 100-dən çox kompakt-diski buraxılıb. O, "dünyanın ən uğurlu pianoçusu" kimi "Ginnesin rekordlar kitabı"na düşüb.

# Nəsiminin qəzəllər toplusu Fransada nəşr olunub

Dövlət Tərcümə Mərkəzinin klassik Azərbaycan ədəbiyyatının təbliği istiqamətində fransız dilində ərsəyə gətirdiyi növbəti kitab – mütəfəkkir şair İmadəddin Nəsiminin qəzəllər toplusu Fransada nəşr olunub.




"Haqq yolu mən özüm oldum – İmadəddin Nəsimi" ("Les Nous divins s'ourrent sur ton visage – Imadeddin Nassimi") adlı kitab Parisdəki "Hemispheres editions & Maisonneuve Larose" nəşriyyatında işıq üzü görüb.

Dövlət Tərcümə Mərkəzindən verilən məlumata görə, kitaba dahi şairin 200-dən çox qəzəli, eləcə də tuyuq və rübailəri daxil edilib. Əsərlərdə istifadə olunan bəzi mürəkkəb söz və ifadələr izah və şərhlərlə verilib.

Nəsiminin həyat və yaradıcılığını əks etdirən ön sözün və əsərlərin fransız dilinə tərcümə müəllifi tanınmış ukraynalı şair, tərcüməçi Dmitri Çistyak, izah və şərhlərin müəllifi Püstə Axundovadır.

# Şahzadə Diananın ziyafət paltarı hərracda

Uels şahzadəsi Dianaya (1961-1997) məxsus ziyafət paltarı Nyu-Yorkdakı "Sotheby's" satış evində hərraca çıxarılıb.



Modelyer Viktor Edelşteyn tərəfindən 1989-cu ildə hazırlanan məxməri paltar 1997-ci ildə – Diananın ölümündən bir ay əvvəl hərracda satılmışdı. Budəfəki hərracda paltar şəxsi kolleksiyadan təqdim olunur.

Edelşteyn 1982-1993-cü illərdə Diana üçün geyimlər hazırlayıb. Hərraca çıxarılan paltar 80-120 min dollar dəyərində qiymətləndirlir. Hərrac yanvarın 23-də keçiriləcək.

Diana 1981-1996-cı illərdə Britaniya taxt-tacının varisi şahzadə Çarlzın (indiki Kral III Çarlz) həyat yoldaşı olub. O, xeyriyyə tədbirlərinin "kraliçası", moda dünyasının simvolu sayılırdı, lakin kral ailəsinə xas olmayan bu davranışı ilə Bukingem sarayında mənfi qarşılanırdı. Diana şahzadə Çarlzdan boşandıqdan bir il sonra, 1997-ci il avqustun 31-də Parisdə sevgilisi misirli milyonçu Dodi al-Fayed ilə birlikdə avtomobil qəzasında həlak olub.

# İranda qadınlar üçün baş örtüyü məcburiyyəti götürülür?

Artıq dördüncü aydır İranda davam edən rejim əleyhinə çıxışlar dini-siyasi rəhbərliyi geri addım atmağa vadar edib. Ölkənin ali rəhbəri Seyid Əli Xamenei ictimaiyyət nümayəndələri ilə görüşündə baş örtüyü geyinməyən qadınların İslam inqilabının düşməni kimi qəbul edilməsinin yanlış olduğunu bildirib. O qeyd edib ki, qadınlar baş örtüyündən istifadə etməyə bilərlər və buna görə onlara irad tutmaq düzgün deyil.

Xatırladaq ki, İrandakı daxili sabitlik məhz baş örtüyü səbəbindən pozulub. Sentyabrın 16-da iyirmi iki yaşlı qızın baş örtüyünü düzgün örtmədiyi üçün əxlaq polisi tərəfindən zorakılığa məruz qalaraq öldürülməsi əhalinin küçə və meydanlara çıxaraq hökumət əleyhinə güclü etirazlara başlamasına gətirib çıxardı. Az keçmədi ki, tələblər siyasi xarakter daşımağa başladı. Artıq aksiya iştirakçıları baş örtüyünü qadağan edən qanunun ləğvini deyil, rejimin ləğvini tələb edirlər.

Ali rəhbərin mövqeyindəki dəyişiklik ölkədə sabitliyin nəyin bahasına olursa-olsun bərpa edilməsi istəyini göstərir. Lakin baş verən hadisələrin gedişatına baxdıqda bu açıqlamanın gecikdiyi görünür. Baş örtüyü qadağasının aradan qaldırılmasından sonra dinin dövlətdən ayrılması və buna bənzər digər tələblərin də irəli sürüləcəyi istisna edilmir. İranın tanınmış mədəniyyət, idman, ictimai xadimləri də aksiya iştirakçılarına dəstək verməyə başlayıblar. Görünən odur ki, İranda İslam inqilabı dəyərləri və dini-siyasi rejim tədricən dayaqlarını itirməkdədir.

# Avropada işçi çatışmır

Avropada işçi qüvvəsinə kəskin ehtiyac hiss olunur. Bu sahədə ixtisaslaşan "Avrostat" agentliyinin məlumatına görə, Avropa İttifaqı ölkələrində vakansiyalar ümumi işçi sayının 3,1 faizini təşkil edir. Otuza yaxın peşə növü üzrə işçi qüvvəsinin kəskin çatışmazlığı müşahidə olunur.



Niderland, Belçika və Çexiyada boş vakansiyalar göstəricisi 5 faizə yaxınlaşır. Almaniyada həmin göstərici 4,5 faiz, Fransa və İtaliyada təqribən 2,5 faiz təşkil edir.

Avropa Komissiyasının hesablamalarına əsasən, hazırda üzv ölkələrin əhalisinin 70 faizi əməkqabiliyyətli yaşdadır, 2070-ci ildə isə bu göstərici 54 faizə düşəcək. Hazırda yaşı 65-dən yuxarı olan əhalinin hər nəfərinə qarşı əməkqabiliyyətli yaşda olan cəmi üç nəfər var və bu meyil getdikcə dərinləşir. Bütövlükdə əhalinin qocalması faktına əmək bazarında inqilab üçün səciyyəvi səbəblər də əlavə edilməlidir. İspaniya, Portuqaliya və İtaliyada boş vakansiyaların artmasının daha bir səbəbi müəyyən sektorlarda əməkhaqqının aşağı və əmək şəraitinin qeyri-qənaətbəxş olmasıdır. Bu problemlər səhiyyə, mehmanxana və kənd təsərrüfatı sahələrində daha qabarıq təzahür edir.

Belə hesab olunur ki, əhalinin qocalması faktından əziyyət çəkən Avropa ölkələri son nəticə etibarilə əcnəbi işçi qüvvəsi üçün qapıları açmalı olacaqlar.




Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 416 il əvvəl...

**8 yanvar 1607-ci ildə** Səfəvi dövləti ilə Osmanlı imperatorluğu arasında növbəti müharibə (1603-1612) gedişində türk qoşunlarının əlində olan Bakıda xalq üsyanı başlayıb. Bundan istifadə edən Səfəvi qoşunları şəhərə daxil olaraq Osmanlı qüvvələrini oradan çıxarıblar. Tərəflər arasında bundan öncəki (1578-1590) müharibədə Bakı Osmanlının nəzarətinə keçmişdi.

### 231 il əvvəl...

**9 yanvar 1792-ci ildə** Rusiya ilə Türkiyə arasında 1787-ci ildə başlanan və Osmanlının məğlubiyyəti ilə nəticələnən müharibənin yekununa dair Yassı sülhü imzalanıb. Krım da daxil olmaqla Qara dənizin şimalındakı ərazilər, habelə Dnestr və Kuban çayı ətrafındakı torpaqlar Rusiyanın nəzarətinə keçib.

### 230 il əvvəl...

**12 yanvar 1793-cü ildə** Rusiya və Prussiya Polşanı ikinci dəfə bölüşdürüblər. Peterburqda imzalanan müqaviləyə əsasən, Qdansk Prussiyaya verilib, Rusiya isə indiki Ukrayna və Belarusun əksər hissəsini əldə edib. Almanların Dansiq adlandırdığı Qdansk liman şəhəri 1945-ci ildə yenidən Polşanın tərkibinə qayıtdı.

### 118 il əvvəl...



**9 yanvar 1905-ci ildə** Peterburqda "Qanlı bazar" qırğını baş verib. Çar II Nikolaya şikayət ərizələrini təqdim etmək istəyən minlərlə fəhlə keşiş Qaponun təhriki ilə Qış sarayına doğru irəliləyərkən qoşun hissələrinin gülləbaranı ilə qarşılanıb. "Qanlı bazar"da, müxtəlif mənbələrə görə, 2 mindən 5 minədək adam ölüb. Bu olaylar Rusiyada 1905-ci il inqilabının başlanması üçün təkan oldu.

### 103 il əvvəl...



**11 yanvar 1920-ci ildə** I Dünya müharibəsinin yekunlarına həsr olunmuş Versal (Paris) Sülh Konfransının Ali Şurasında Azərbaycan Xalq Cümhuriyyətinin tanınması barədə qərar qəbul olunub. Cümhuriyyət Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun başçılıq etdiyi nümayəndə heyəti Qərb dairələri ilə aparılan birillik gərgin danışıqlardan sonra buna nail olmuşdu.

### 61 il əvvəl...

**10 yanvar 1962-ci ildə** tarixdə ən dəhşətli qar uçqunu baş verib. Perudakı Nevado-Uaskaran dağından başlanan daş-qaya qarışıq uçqun 7 dəqiqə ərzində 10 kilometr irəliləyərək 7 yaşayış məntəqəsini yer üzündən silib. 4 mindən çox adam ölüb.

### 46 il əvvəl...

**8 yanvar 1977-ci ildə** SSRİ-nin paytaxtında silsilə partlayışlar baş verib. Eyni vaxtda (40 dəqiqə içində) Moskva metrosunda, DTK binasının yaxınlığında və ticarət mərkəzində gerçəkləşən partlayışlar nəticəsində 7 nəfər ölüb, 37 nəfər yaralanıb. Metro vaqonunda (İzmaylovskaya-Pervomayskaya stansiyaları arasında) partlayışın ermənilər tərəfindən həyata keçirildiyi təsdiqlənsə də, olaya rəsmən terror adı verilmədi, hadisələrin hər üçünün arxasında terror şəbəkəsinin olması açılıb-ağardılmadı.

### 44 il əvvəl...

**7 yanvar 1979-cu ildə** Kambocada qiyamçı qüvvələr Vyetnamın hərbi köməyi ilə paytaxt Pnompeni ələ keçiriblər. 4 illik hakimiyyəti dövründə 6 milyonluq ölkə əhalisinin üçdəbirini məhv etmiş "Qırmızı Kxmer" diktaturasına son qoyulub. Rejimin başçısı Pol Pot ölkədən qaçıb.

### 27 il əvvəl...

**9 yanvar 1996-cı ildə** çeçen komandirlərindən Salman Raduyevin dəstəsi Dağıstanın Kizlyar şəhərinə hücum edib. Terrorçular bir neçə gün şəhəri əllərində saxladılar. Rusiyanın güc strukturlarının uğursuz antiterror əməliyyatı nəticəsində 70-dən çox insan həlak oldu, Raduyevin dəstəsi isə aradan çıxa bildi. 2000-ci ildə ələ keçirilən Raduyevə məhkəmədə ömürlük həbs kəsildi. İki il sonra o, Perm vilayətindəki həbsxanada öldü.

### 31 il əvvəl...

**8 yanvar 1992-ci ildə** erməni təxribatçı dəstələri Azərbaycana qarşı daha bir terror əməli həyata keçiriblər. Türkmənistandan Krasnovodsk (Türkmənbaşı) – Bakı marşrutu ilə hərəkət edən bərədə törədilən terror aktı nəticəsində 25 nəfər həlak olub, 88 nəfər yaralanıb.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymət**i: 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5055. **Sifariş:** 118
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641